# BÖYÜK SUİ-QƏSD NƏZƏRİYYƏSİ

Fərhad MƏMMƏDOV©

"Qorxulu Əhvalatlar" silsiləsi

Roman

2011




## I FƏSİL

### Daimi müştəri

## Üç ay əvvəl

Önündən ötüb keçənlərin tezliyinə gözləri alışmışdı. Piştaxtanın önündən keçən piyada yolunda yalnız nahar vaxtlarında və ya axşam üstü ötüb keçənlərin sayı seyrəlirdi.  Rüstəm kişi çox insanlılığa öyrəşmişdi artıq.  Daima müxtəlif temperament və xasiyyətli insanlarla ünsiyyət, onların gündəlik davranışlarına müşahidə Rüstəm kişidə böyük psixoloji üstünlüklər yaratmışdı. İnsaların himini də, cimini də bilirdi. Düz on il idi ki, bayram və istirahət günlərini çıxmaq şərtilə həyatının əksər saatlarını bu qəzet-jurnal qasidində keçirirdi. Şəhərin mərkəzi yerlərindən olan Azadlıq prospektindən belə köşkü əldən verməmək üçün dəridən-qabıqdan çıxmışdı işgüzar Rüstəm kişi.

Yanvarın üçü hələ də bayram günü olmasına rəğmən, evdə oturmaqdan təngə gəlib, iş yerinə getdi. Son günlərdə qızını evlilik, oğlunun ali təhsil haqqı məsələsi, digər oğlunun – beyin pozuntuları olan əlil oğlunun gələcəyi barədə çox götür-qoy edirdi. Bununla belə  bekar vaxtlarında hər zaman, bir neçə ay bundan qabaq ilk dəfə piştaxtasına yaxınlaşmış 25-30 yaşları arasında olan və həftədə üç kərə müştərisi olmasına rəğmən adını gizli saxlayan daimi müştəri haqqında fikirləşirdi. Onu ilk dəfə görənədək, Rüstəm kişi elə düşünürdü ki, "elə bir insan olmaz ki, onun maska altında gizlətdiyi həqiqi simanı müəyyən etməsin. Ancaq bu müəmmalı müştəridən sonra onun bu məğrurluğunu sanki dənizin dibinə batırdılar.

- Ataş dünən xəbərin oldu da, dünən Bakıda yeni peyda olmuş manyakı tutdular. Gecələr qaranlığa düşmüş cavan qızları xüsusi zorakılığla öldürürdü, yaramaz. Bir işə bax ki, hamsını xüsusi kəmərlə boğub öldürürmüş.

- Xəzər Xəbərdə baxdın?

- Hə... Bütün cinayətlərini boynuna alıb. Amma özü deyəni, heç də peşman olmayıb çirkin əməllərindən. Deyir buraxsalar yenə də həmin işlərlə məşğul olacam. Beləsini bir dəfə yox beş dəfə asmaq da azdı. Sonradan məlum oldu ki, həmin manyak bir neçə il bundan əvvəl boşanıbmış. Heç toyundan bir-iki həftə keçməyib ki, arvadı ondan ayrılıb. Oğlan impatent ola ola valideynləri güc-bəlayla onu evləndirmişdilər. Öz oğulları cəhənnəmə, oğullarının çatışmamazlığını toy-düyünlə örtbasdır etmək üçün yazıq qızı bədbəxt etdilər

- Sən Allah!

- Qız isə axırı dözməyib, boşanmağı qərara aldı. Dediyinə görə, aralarında heç nə olmasa idi belə, ömrü boyu ona dözərdi. Bircə onun özündə şəhvət yaratmaq üçün etdiyi çirkin işlərdən başqa. Yazıq qızın belində siqaret söndürür, ağız-burnunu yumruqlayır, ayıbçı yerlərini isə iti dırnaqları ilə cırmaqlayırdı. Ayrılsalar da qız bu barədə məhkəmədə danışmadı. Axı gəlin öz qohumlarından idi. Ancaq arvadı üzərində sado-mazaxist tələbatlarını artıq ödəyə bilməyən manyak, bir neçə aydan sonra beləcə ilk qurbanını xüsusi zorakılıqla öldürdü...Sən bir gör...

-deyə Rüstəm kişinin cümləsi ağzında qalmışdı ki, Rüstəm kişinin bayaqdan fikirlərində oynayan adsız “daimi müştəri” gəldi. Havanın o qədər də soyuq olmamasına baxmayaraq, başında qara qış papağı var idi. Üstündə “Force” deyə yazılmışdı. Uzunsov və qeyri-simmetrik sifəti, sağa tərəf sınmış burnu və balaca qonur gözləri vardı. Gözlərinin altında bir qədər qaraltı sezilirdi. Görünür yuxudan bu gün gec durmuşdu. Bəlkə

hərəkət etməsəydi kənardan baxan bilə-bilməzdi ki, bu adam canlıdır yoxsa cansız. Sifət əzələləri sanki işləmirdi. Bununla belə iti və qorxulu baxışları vardı. Rüstəm kişi həyatında çox qəribə və qorxunc şeylər görmüşdü. Bununla belə, sakit və kənardan təhlükəsiz görününən bu müştərisindən çox çəkinirdi. Özündən asılı olmayaraq qan təzyiqi artırdı. Tez-tez udqunur, ağzı quruyurdu. Özü də bilmirdi niyə?

Azdan çoxdan Ataş da bu qəribə müştəri haqqında Rüstəm kişidən eşitmişdi. Ona baxan ilk andan hiss etdi ki, bu elə Rüstəm kişinin, haqqında həyəcanla danışdığı həmin "müştəridir". Köşkün qəzet, jurnal qoymaq üçün nəzərdə tutulmuş taxta panelinin qabağından çəkilib, həmin müştəriyə yol verdi.

"Müştəri" Ataşa əhəmiyyət verməyərək satıcını görə bilmək üçün başını budkanın pəncərəsinə əydi. Salamlaşmadan birbaşa gəlişinin məqsədinə keçdi.

- 26 dekabr gününə olan qəzetləri zəhmət olmasa!
- Srağa gün gəlməmişdin, bəlkə ayın 23-nə olan Azadliq, Müsavatı da aparasan.
- Yox. Bunlar kifayət edər.

Rüstəm kişiyə çox maraqlı idi ki, həmin "müştəri" çərşənbə günü qəzetlərin dalınca niyə gəlməmişdi. Axı o hər üç gündən bir gəlib, bir həftə əvvəlki qəzetləri alırdı. Rüstəm kişi hər birinci, üçüncü və altıncı gün satılmayıb boynuna qalan əsas qəzetlərdən beş-altısını kitabların arasında gizlədib, düz bir həftədən sonra almağa gələcək müştəri üçün saxlayırdı. Rüstəm kişi bu qəzetləri hər dəfə ona ümumilikdə 1 manatdan satırdı. Ancaq baş aça bilmirdi ki, bu köhnə, yalnız Tofiq Bəhramov adına stadionda möhtəşəm maçlar keçirilən zaman oturacaq üstü kimi istifadə

olunan lazımsız, keçmiş zamanı təmsil edən qəzetlər həmin adamın nəyinə lazım idi.

Qəzetləri götürmək üçün qabağı əyiləndə, "müştəri"dən çox şirin, vişnə iyinə yaxın ətir qoxusu gəldi. O qədər tünd və şirin idi ki, Channel qadın ətirlərini iyini verirdi. Rüstəm kişi "müştərini" tanıyanı, o bir dəfə də ətir vurmamışdı indiyənə kimi. Bəs indi nə oldu? Altıncı hiss ona müştərinin həyat tərzində nəinsə dəyişdiyini pıçıldayırdı.

Qəzetləri götürüb gözlərini Rüstəm kişidən ayırmadan, bir manatı ona uzatdı. Qəzetlər artıq əlində olan salafan bağlamada olsa da yerində durnuxub qalmışdı. Görürür nəisə demək istəyirdi. Ancaq tərəddüd edirdi. Birdən qəti qərara gəlib dedi:

- Sizdən bir, xahişim var...Mənə necə ki, bu qəzetləri yığıb satırsız, eləcə də televiziya kanallarından bir neçəsindən hər həftə 3-4 video kasetə yazın, məsələn, bir gün Xəzər kanalının xəbərlərini yazın, sabahı gün ANS-dən bir şey götürün, o da bir saat, nə bilim eh ATV-də idman xəbərlərini, lap istəsəz şoubiznez verlişlərini də yaza bilərsiz. Buna görə Sizə hər həftə 20 manat verərəm. Lap kasetləri almaq da özümdən. – tez-bazar bağlamadan üç boş VHS kaset çıxarıb, donub qalmış Rüstəm kişinin önünə qoydu. - Sizdən nə gedirki?

Rüstəm kişi xeyli fikirə getdi. "Görəsən bu nəçidi belə"-deyə ağlından bu adamın şəxsiyyəti haqqında qorxunc fikirlər keçdi. Rüstəm kişi artıq güman edirdi ki, bu gənc yaramaz hansısa ölkənin agenturasına işləyir. Ancaq bir şey də var idi ki, agenturanın nəyinə lazım axı Rüstəm kişi kimi lazımsız şahidləri işə cəlb etsin. Həm də ki, iyirmi manat da son günlər üçün az pul deyildi.

- Mənin başım çıxmır, yəni sənin özündə video-televizor yoxdu?
- Var...
- Onda balamsan, özün yaz da elə.
- Mənə televizora baxmaq olmaz. Nə isə çox danışdım. Razısan ya yox?
- Nə bilim...Evdə video var, bircə bilmirəm onunla zapis eləmək olur ya yox. Olsa "HƏ" , razıyam.

Bayaqdan müşahidəçi mövqeyi tutan Ataş, "müştərinin" nə qədər ciddi şəxs olduğunu qavramayıbmış kimi, məzəli tonda:

- Qağa, bu gün yanvar ayının üçü ola-ola, keçən ilin qəzetlərini niyə oxuyursan? –soruşdu. Bircə sual kifayət etdi ki, "müştəri" bağlamanı da yerə atıb Ataşın üstünə cumsun. Ataş belə reaksiyanı gözləmədiyindən yerində keyiyib qalmışdı, eləcə onu tutub başını bir neçə dəfə köşkün reşotkasına vuran "müştəriyə" zəlilcəsinə baxırdı. Artıq başını dördüncü dəfə dəmirə vuracaqdı ki, Rüstəm kişi tez özünü çatdırmağa çalışdı. Çox gec idi. Huşunu itirib yerə sərilmiş Ataş "müştərinin" ardıcıl, amansız təpiklərini yeyirdi.
- Allah xatirinə, dayan vurma- deyə Rüstəm kişi "müştərinin" qoluna girib onu cilovlamağa çalışdı.
- Öl donuz!....Bu gün yanvarın üçü deyil. Bu gün yanvarın üçü deyil – deyə hey təkrarlayırdı.
- Özüvü əla al- deyə Rüstəm kişi "müştərini" bir təhər aralaşdırdı. Yoldan keçən biri hadisəni görüb yerə sərilmiş Ataşı qaldırıb üst-başını təmizlədi . Bir neçə dəqiqəyə "müştəri" də sakitləşdi. Sanki heç bir şey olmayıbmış kimi, əvvəlki quru sifəti almışdı. Əlini

cibinə atdı, nəisə eşələyib oradan bir şey çıxarıb ovucunda gizlətdi. Rüstəm kişiyə əl uzatdıb, ovucda olanı onun ovucuna ötürdü.

- Olanlara görə üzr istəyirəm,...hesab et ki, heç bir şey olmayıb. İnşallah həftənin axırı kasetlərin dalınca gələcəm- deyib sakit şəkildə köşkdən ayrılıb 28 may istiqamətində hərəkət etdi.

Ovucunu açanda Rüstəm kişi orada olana çox heyrətləndi. "Müştəri" ona üzrxahlıq ifadəsi kimi, cağbacağ 300 manat pul vermişdi. Rüstəm kişi də alver sahəsində böyük təcrübəsi olduğundan elə "alverçi" vərdişləri ilə bu üç kağız parçası naminə bütün olan qalmaqalları unutdu. Hələ üstəlik Ataşın özünə gəldiyini görüb.

- Dur cəhənnəm ol burdan, sən mənim klientlərimi niyə qaçırırsan axı. Axmaq! Bir də səni buralarda görməyim. –deyə onsuzda ayaq üstə qırxı çıxan Ataşı öz işinin dalınca göndərdi.

## II FƏSİL

## UNUTMA!!!

İmranı telefon zəngi yuxudan oyatdı. Nədənsə çox həyəcanlı idi. Yerindən qalxanda prostinanın tər-su içində olduğunu hiss olunurdu. Distansion panasonic telefon isə artıq dördüncü dəfə idi ki, dınqıldayırdı. İmrana çox qəribə gəldi ki, telefon yanında olduğu halda, səsi mətbəx tərəfdən gəlirdi. Həm də, adi şəhər telefonuna zəng gəlsə də, telefonu balışının yanında olan mobil telefonun "Nokia" adlı zəng tonunu çıxarırdı. Axı adi telefonda belə zəng çalarları olmur. Nədənsə əmin idi ki, bu məhz ev telefonundan çıxan zəngin səsi idi. Ayağa qalxmağı ilə mətbəxə daxil olmağı bir oldu. Gözləri qırpmaqla artıq telefon əlində idi. İmran baş çıxara bilmədi ki, bu neçə gün yuxusuzluğun nəticəsidir yoxsa onun başına

doğrudan da hava gəlir. Belə sürətli şəkildə hərəkətlər etmək çevik milçəklərə belə qismət olmurdu. Hələ bu fikirlərdən ayrılmamışdı ki, telefonun "TALK" düyməsini necə basdığını özü də bilmədi. Sanki ruhu başqa bir kəsin bədəninə girmişdi və hərəkətlərini başqası idarə edirdi. Xəttin o biri tərəfindən çox sakit şəkildə danışan yaşlı bir adamın səsi eşidildi.

- Sən deyəsən məsələnin nə qədər ciddi olduğunu bilmirsən. Beş saniyəyə pulları çatdırmasan qardaşının başının necə kəsildiyini öz qulaqlarınla eşidəcəksən
- Bir-İki-....

İmranın ürəyi az qala partlayacaqdı. Beş saniyəyə pulu naməlum yerə-bəlkə də kilometrlərlə uzaq məsafəyə çatdırmaq, bu nə ağılasığmaz fikir idi belə-deyə İmran təlaş içində fikirləşdi. Üçüncü saniyə eşidilməmişdi ki, xəttin o biri ucundan qardaşının fəryadı eşidildi.

- İmran qurban olum, bunları qoyma...qoyma məni öldürsünlər.
- Dörd-Beş-deyə sanki birdən telefonu boğazı kəsilmiş və qan fışqıran qardaşına tərəf yaxınlaşdırdılar. Bir neçə saniyəlik xırıltıdan sonra qardaşının canını necə tapşırdığı aydınca eşidildi. Sonra xəttin o biri tərəfində dəstəyi qoydular.
- Yoooooooxxxxxxxx....Ay Allah! –deyə öz başını yumruqlaya-yumruqlaya bağırdı.

Birdən gözünün qabağında olan fon yavaş-yavaş dəyişdi. İmran hələ də çarpayıda olub tavana baxdığını gördü. Başa düşdü ki, bu yenə də hər həftə gördüyü yuxu idi. Çarpayının yanında olan stulun başına asılmış dəsmalı götürüb, tər-qan içində olan üz-gözünü sildi.

**6 ay əvvəl**

*** *** ***

Üç aya yaxın idi ki, işə düzəldiyi "ofisdə" çalışırdı. Çalışmaq deyəndə ki, iki yüz manat maaş erkək biri üçün həyatı alatoran vəziyyətə gətirirdi. İpoxondriya öz sözünü deməyə başlayırdı. Hər şeyə həvəsi ölmüşdü. Əvvəlki stimulları, uşaqlıq xəyalları, gənclik idealları topyekun iflasa uğramışdı. İşinin monotonluğu isə boz depresiyanı daha da qatılaşdırırdı. Stiven Kinqin sözü olmasın, e**S**e**SD**i**D**i – **S**eym **Ş**it, **D**iferent **D**ey, bir sözlər "**hər gün eyni zibil**". Öz taleyinə hər gün bəd-dua edərdi. Axı niyə onun işə düzəlməyi bu lənətə gəlmiş "böhran iqtisadiyyat"la eyni vaxta düşdü. Əhalinin getdikcə pisləşən maddi durumuna görə idi ki, müştərilər gün-gündən günə daha aqressiv maskalar taxırdılar. Hər qəpik-quruşa görə əzizlərinin canına and içir, "sən öl" vurur, qeyri-peşəkarcasına yalan danışır, iş vaxtında hazır olmayanda isə, arvadı şərlənmiş erkək tək öküzcəsinə bağırardılar. Pentalgin qəbulu baxımından öz təyin etdiyi -günə iki həb- kvotasını çoxdan alt-üst etmişdi. Bu isə onun qanının həddindən artıq durulmasına gətirmişdi. Bədənində ən xırda cızıqlar belə, qan fışqırtısına səbəb olur, qan isə laxtalanmaq bilmirdi. Diş ağrısı, baş ağrısı, "ruh" ağrısı – hamsı qarışmışdı bir birinə. Bəzən öz vəziyyətini təhlil edəndə, Şerifin ölməz karikaturalarından birində, bir personajın daha doğrusu, xəstənin qarşısında oturan həkimə dedikləri yadına düşür və öz-özünə gülümsəyir. ***"Həkim! Ruhum bir az xəstələnib".***

Bacardığı yeganə iş kompyuteri bir az "qurdalamaq" idi. Onu da natamam şəkildə aferist tədris müəssisələrin birində ayı əlli manatdan altı aya öyrənmişdi. Bu qansız şirkət sahiblərinin işi ancaq süni şəkildə müştərinin tədrisinin vaxtının uzadılmasından ibarətdir. ***"Müştəriyə az-***

***az öyrət ki, çox-çox gəlsin"*** deyə fəaliyyət göstərirdilər.Nə çox belə OFİS, WINDOWS, DELPHY, INGILIS DILI və s. şeylər  şeylər "öyrədən" müəssissələr. Bakının bir müdrik imamı demişkən, əvvəllər Abdullah – Allah qulu adı qoyurdularsa, indi də gərək ABDULMANAT, ABDULDOLLAR adının qoyulması geniş vüsat alsın. Axı bu adlarda qəribə səslənən nə var. Limonad, Qaraj, Traktor adı ola bilər, *Abdulmanat* yox?! –deyə

***  ***  ***

İmran qarşısında arxası ona tərəf oturmuş, barmaqları ilə klavişləri çevik şəkildə şaqqıldadan iş yoldaşı Ətrabəyə baxırdı. O sümbül tək sarı saçları elə gözəl daranmışdı ki, arxadan nəzər yetirdiyi qızın həmin Ətrabə olduğuna inana bilmirdi. Ətrabə isə üçüncü gözüylə öz üzərində kişi nəzərinin olduğunu duyub, fors-qəmzəsindən geri qalmırdı. Müxtəlif pozalar alır, qıncanır, əsnəyir, saçına sığal çəkir, ayaqlarının yerini dəyişir, af-of tipli səslər çıxarır. Boşuna deməyiblər ki, qadın sevgilisindən çox özünü sevir, öz görünüşünü... narsisizm qadınlar arasında geniş yayılmış hal olduğundan, bu amil kişiləri seçim baxımından daha uğurlu edir. Axı qadın gözüylə deyil, qulaqlarıyla sevir.

Bütün bu tip fikirlər ağlından bir anlıq keçsə də, onun o qədər də Ətrabədən xoşuna gəlmirdi. Ətrabəyə qarşı yalnız qadınlığına görə simpatiyası vardı. Ətrabə isə on İmran tərəfdən nəvaziş görmədiyindən və xoş sözlər eşitmədiyindən, İmrana qarşı marağı ölmüşdü. Həm də bu hal onu özündən çıxarırdı. Daxilində ictimai senzor olmasaydı qalxıb ona yaxşıca bir neçə yağlı cümlələr deyərdi. " Sən heç kişi deyilsənmiş,..." , " Necə kişisən ki qadın gözəlliyi qarşısında ərimirsən!".

Ətrabə özü də o qədər forsa girdi ki, diqqəti yenidən qarşısındakı monitora qayıtdıqda tələbə müştərilərdən birinin kurs işini ilan-qurbağa hərflərlə yığdığını gördü. "Of...İndi gəl iki absaz yazını təzədən yaz.

İmranı isə canlı yuxudan cib telefonuna qəfildən gələn zəng oyatdı. Bir neçə cızığı olan köhnə Nokiasının displeyində BOSS adını görüb, özündən asılı olmayaraq üz-gözünü turşutdu. Bir neçə saniyə nə danışacağını götür-qoy edib YES düyməsini basdı.

"Alo....

"Hə, İmran oralarda vəziyyət nə təhərdir? – ağlından qəşəng bir söyüşlü cavab keçirdi ki, belə axmaq suala əntiqə cavab ola bilərdi. Bir şey də var ki, söyüşü şayət işlədsə, gərək bir daha bu "OFİSƏ" ayaq basmaya.

"Belə də pis deyil...- bax indi maymağ soruşacaq ki, klient çoxdur? Yüz faiz.

"Kliyent zad var? – İmrana əsəbdən dəli gülməy gəldi. Bu əclafın elə bir günü yoxdur ki, İmranı qıcıqlandırmasın. Yəni O, simasından və ya hərəkətlərindən "başqa cür" görsənir ki, rəisi ondan bu qədər şübhələnir. Axı o dəfələrlə əyani şəkildə sübut edib ki, qəlbdə təmiz olmasa (öz özünə yalandan qiymət verməк istəmir) da, hərəkətlərində olduqca vicdanlıdır. Başqalarının halına özündən çox yanır....Bununla belə bu təmizlik başqalarında şübhə doğurur.

- "Xeyr. Dünənki kurs işlərini yığırıq"
- "Neylək, siz davam edin,...bir iki saata mən də gəlirəm...İmran bax ah, gəlirləri kağıza düz yaz" – görməmiş, yedim sənin pullarını, boğazında qalsın...deyə ürəyində cavab verdi.
- "Oldu" deyə tez-bazar No düyməsini basıb telefonu bayaqdan boş-bekar oturduğu masanın üstünə vızıllatdı. Möhkəm sürtüntü

səsindən diksinən Ətrabə çevrilib ona tərəf kinli-kinli baxsa da heç bir söz demədi. Əslinə qalanda rəisinin verdiyi az maaşa rəğmən həddindən artıq, ifratca tələbkar olması onu da boğaza yığmışdı.

Qapı çevikçəsinə açıldı. İçəri idman geymində olan son dərəcə arıq bir leşyeyən sifətli cavan oğlan daxil oldu. Mazut tək qara dərisi olan, bununla belə, nədə olsa zəncidən seçilən, bu dəliqanlının sağ gözü sol gözündən təxminən iki dəfə kiçik idi. Daha doğrusu, göz qapağı daha çox yığılmışdı. Adətən dəm adamlar gözlərini yorğunluqda belə edərdilər – sinxron olmaq şərtilə. Bu halı ona aid etmək düzgün olmasdı. Sadəcə anadangəlmə bir defekt. Bəlkə də üstünlük. Kim bilir?- deyə İmran özlüyündə götür-qoy etdi.

Oğlanın şorgöz olması elə ilk saniyələrdən bəlli oldu. İmrandan qabaq qıza baxıb, ağzının suyunu udurmuş kimi şüuraltı cinsi niyyətlərini özü də istəmədən üzə çıxardı. Hətta qısqanmasa belə, oğlanın heç də xoş məramla gəlmədiyini hiss edən İmranın "Nə lazımdır?" sualını eşidəndə belə, gözləri hələ də qızın çılpaq qalmış baldırlarında idi. Bic-bic gülümsəyib, üzünü İmrana tərəf çevirdi.

- "Qağa, balaca bir ərizə yığmaq lazımdı..."

Mətn yığımı işinə Ətrabə özü baxdığından İmranın yalnız iki çıxış yolu var idi. Ya razı olub müştərini qızın üstünə göndərməli ya da ki, onsuzda müştərinin səhrada bit tək az olduğu bir mövsümdə bir bəhanəylə geri yollamalı idi. Üstəlik rəisin gələn vaxtlarında.

- "Xanıma yaxınlaş...o, yığar"-deyə özü də istəmədən dodaqlarını tərpətdi. Əclaf sanki bu məqamı gözləyirmiş kimi, yenə ağzının tüpürcəyini fısıltı ilə udub qıza tərəf getdi. Başının üstündə durdu.

- “Siz mətni mənə verin, mən özüm yığaram...Başımın üstündə durmaq lazım deyil”-deyə Ətrabə acıqlı şəkildə öz sözünü dedi.
- “Mama qızı, məndə hazır mətn olsaydı ta burda nə itim azmışdı? Mən sizə diktavat edim SƏN də yığ”- naməlum bu cavanın birdənbirə SƏN-ə keçməsi qızı çox özündən çıxarsa da, işinin xatirinə müştərinin nazıyla oynamalı oldu.
- “Hə, qəşəng qız...Deməli yuxarı hissədə yaz...Hmm...Səlahiyyətli orqanlara...Yaz ki, filan ünvanda yaşayan filankəsov filankəs tərəfindən...”- guya ekranda yazılan görmürmüş kimi təzim şəklində qızın önündə başını ekrana demək olar ki soxdu. Heybətli sifəti az qala qızın üzünə toxunacaq dərəcədə yaxın idi. Ətrabə özünü çox narahat hiss etməyə başladı. Ağzından gələn mənfur qoxu isə onu lap çox özündən çıxarırdı.
- “Bir az aralı durun” –deyə İmranın eşitməməsi üçün sakitcə dilləndi.

İmran tədricən özündən çıxırdı. Ancaq qaynama nöqtəsinə çatmamışdı ki, bütün gərginliyini boşaltsın. Yaramaz aralı dursa da, bir neçə saniyədən sonra yenidən qıza yaxınlaşdı. Bu dəfə həddi lap aşaraq, İmran görməsin deyə qızın sağ tərəfinə keçib, çiyniylə qızın çılpaq qolların sürtündü. Ətrabə artıq dözməyib müştərini əliylə geri itələyib yaxşıca söydü.

- Cındır oğlu, cındır...mən sənin tanıdığın qızlardan deyiləm.
- Səsini kəs və yaz...

Bəli bu artıq qaynama nöqtəsi oldu, İmran mümkün qədər əsəblərini cilovlamağa çalışdı. Əlbəyaxa davaya yalnız ən son anlarda girərdi.

- Sən çıx bayra...Çıx, çıx...Get mətni başqa yerdə yığdır.

Müştəri elə qorxunc sifət aldı ki, İmran belə onun həmin adam olub-olmadığına tərəddüd etdi. Cibindən 5 manat çıxarıb İmranın arxasında əyləşdiyi iş masasının üstünə vızıllatdı

- Götür pulu, kəs səsivi, peysər!

Əcləf...İmranın həyatda ən nifrət etdiyi söyüş idi bu söz. Hətta əsgərlikdə olarkən belə sözünün gündəlik işlənən sözlərdən olduğu bir mühitdə belə, özünü hörmət qoyub, söyüş söyən yoldaşları arasında hədd saxlayırdı. PEYSƏR-in mənası o, idi ki, ya anan fahişədir, ya bacın, ya da kı, arvadın. Bircə bu söz kifayət etdi ki, İmran yaramaz müştərinin üstünə vaşaq tək atılıb, bədəninin ağırlığı ilə yerə aşırsın və ağzına-ağzına vursun. Ətrabə vəziyyətin gərgin olduğunu görüb, arxa qapıdan çıxıb kömək dalınca getdi.

` -4-Sağ yumruq, sol yumruq, kəllə,...boğazlama, saçdan tutub başını döşəmədəki kafelə var gücü ilə vurma. Bir sözlə müştərinin üz gözü o qədər qana boyanmışdı ki, sifətində nəyin harada olduğunu ayırd belə etmək olmurdu. Yaramaz leş gününə düşmüşdü. Artıq əlləri ilə zərbələri dəf edə bilmirdi. İmran isə hələ də vurmaqda idi.

- Cındır, fahişənin oğlu sənsən...mən yox...Peysərin böyüyü sən özünsən. Oğraş...

İmran arxadan qapının açıldığını və kimlərinsən içəri cumduğunu hiss etsə də hələ də hirsini zərbələrlə soyutmağa çalışırdı. Boynundan kimisə yapışıb onu ayırmaq istədi. Nə qədər etdisə məqsədinə çata bilmədi.

- Burax, onu....Burax!

Daha sonra İmran boynunun arxasından ağır bir alətlə zərbə aldığını hiss ətdi. Əzələləri boşaldı və gözləri yumuldu. Sən demə bu ağır alət, rezin dubinka imiş. Gözlərini açdıqda Xətai rayon polis bölməsinin kamerasında

yerdə uzandığını gördü. Onunla bağlı böyük sirrin üstünün açılmaması üçün sabahı günü (dörd yüz manat verib azadlığa çıxdıqdan sonra) işdən çıxdı. Bir neçə ayın içində isə yaşadığı mənzili tərk edib Azadlıq prospektində kirayə ev tutdu.

## III FƏSİL

## Yeni il hədiyyəsi

**1 il 3 ay öncə**

Yeni il bayramını səbirsizliklə gözləyirdi Abdullayevlər ailəsi. Ona görə ki, ailənin bütün üzvləri üçün bu ilin ən maraqlı və ən yadda qalan günü idi. Hər biri həmin gün işləmədən azad olduğuna görə, ailə tam şəkildə yığışardı süfrə başına, dadlı təamlardan dadıb, bol-bol söhbət edərdilər. Başqa günlərdə yeni il günündə olduğu kimi bayram nəşəsi duyulmazdı. Ailə başçısı – 56 yaş, həkim-cərrah Vüsal Abdullayevin də üzündə təbəssüm sezilərdi bu bayram günündə. Uşaqların bayram hədiyyələrini Almaz xanım hazırlayardı. Əkiz qızlarının həddi-buluğa çoxdan çatmış olmaqlarına rəğmən, hər il, üzərində şaxta baba həkk olunmuş və Happy New Year sözləri yazılmış boz rəngli bağlamaları müxtəlif şirniyyatlarla, xüsusi suvenir və ya ətirlər, cürbəcür hədiyyələrlə doldurar və onların yeni ilini bu yolla təbrik edərdi. Yeganə oğulları olan Ramizə də eləcə.

- A kişi nə istəyirsən eh, vaxtında qədrimi bil deyirəm sənə. Əlli manata lap Şah Abbasın bazarlığını eləmişəm. Masanın üstündə nəistəyirsən var-deyə evdarlıq işləri ilə yarışmağı sevən qadınlar kateqoriyasına aid olan Almaz xanım ərinə dedi – Nə olsun pajarnik qızı olmuşam, buna baxmayaraq, hesab işini lap

kompyuter kimi bilirəm. Sənə deyirəm bu baş, bu əllər qızıldı qızıl. Vaxtında qədrimi bil.

Vüsal bu bekara lovğalıqdan təngə gəlib oğluna:

- Ramiz, tez araqları boşalt bir vedrəyə, gətir bura!

Almaz xanım o dəqiqə reaksiya verib, yeməyi dayandırdı, çəngəli qırağa qoyub:

- A kişi sənin başın xarab olub. Arağı tökməyə yer tapmadın?
- Demirsən mən beləyəm, mən eləyəm. Sənin başın axı qızıldandı, deyirəm gələcək nəsillərə mütləq lazım olar, ona görə çürüməsin deyə elə indidən spirtin içində saxlayaq.
- Ə sən nə sarsağ adamsan. Bu axmaq zarafatlarından heç vaxt xeyr gəlmir.

Mənzilləri səkkizinci mərtəbədə yerləşsə də, liftləri işləmirdi. Hər gün bu böyük məsafəni qət etməkdən lap idmançıya çevrilmişdilər. MİS-dən bu yaxınlarda söz vermişdilər ki, lift məsələlərinə baxan "müvafiq qurum" yaxın gələcəkdə bu məsələni çözəcək. Hələ ki, heç bir əncam çəkilmirdi. Ən zülümü isə altıncı günlərə təsadüf edərdi, Vüsal həkim yarmarkadan aldığı 4-5 torba meyvə-tərəvəzlə evə qalxanda.

- İndi day, bayramdı deyə danışmıram, ...bayram qurtaran kimi bu üstümüzdəki əclafı elə çalxalayacam ki, daxılında olan qəpik-quruşu da qoyacaq həmin kanalizasiya borusunun təmirinə.
- Əşi qanını qaraltma bayram günü! Di ye salatdan.

Söhbət doqquzuncu mərtəbədə yaşayan İrəvan məcburi köçkünləri İsrafilgildən gedirdi. Bir neçə ay qabaq, Vüsal həkim deyəni "unitazın başına nə iş gətirmişdilərsə, birinci mərtəbəyə kimi bütün mənzillərdən keçən enli kanalizasiya borusu deşilmiş, nəticədə səkkizinci mərtəbədə

yerləşən mənzillərin divarlarına sızmışdı. Nəmişlikdən Abdullayevlərin nəzir-niyazla etdikləri iki il öncəki ümumi təmiri "yağlı şillə" yemişdi: yasəmən və nərgiz gülləri həkk olunmuş al-əlvan rəngli divar kağızları qaraltı verərək, şişmiş, bəzi yerlərdən qopmuş, üzlük şpaklyovka çatlaq verərək ovulmağa başlamışdı.

Şuba salatın hələ yeyilməmiş olduğunu görüb ağlından nəsə keçən Almaz xanım dizüstü kompyuterdə Hitman 3D oyununu oynayan oğlu Ramizə dilləndi:

- Balamsan, deyirəm bəlkə bu bayram yeməklərindən bir-iki dilim qonşu Murada aparasan. Yazıqdır axı, yetim. Yeni ili kimsəsiz keçirir, tək bayquş kimi. Yəqin yeni ilə heç bir şey almayıb, həmişəki yarımfabrikat suplardan yeyir.
- Eh mama, mənim o qaşqabağlı, özünnən razı gədədən heç xoşum gəlmir
- Xoşun gəlmir, Allah rizası üçün elə, əl tutmaq Əlidən qalıb.
- Hə,yaxşı bezdirdin eh,mama! Ver aparım, nə aparacam.

Bayaqdan gözü sataşdığı təpə şəklində bütün qabı ehtiva edən qırmız-ağ rəngli "şuba" salatını götürüb oğluna uzatdı.

- Onsuz da, nə atan nə də qızların şubayla arası yoxdur. Hər il özümə söz verirəm ki, "ta bəsdir, bu dəfər hazırlamıram", amma hər dəfə də yaddımdan çıxır.
- Yaddınnan çıxmır eh, prosta qonum-qonşu xanımlar arasında sonra lovğalanasan ki, filan qədər salat bişirdim yeni ildə.
- Vüsal gördün balaca yaramazın nə uzun dili çıxıb

Söhbətə ata – Vüsal həkim də qoşuldu:

- Sən dediyin "balaca yaramazın" artıq on üç yaşı var.

- Kişi elə səndə onun tayısan. Ramiz fırt eliyib burnundan düşüb. Ta sənə sözüm yoxdu.- üzünü Ramizə tərəf çevirib hədələyici tonda-di tez elə apar qonşunun payını.

Ramiz nədənsə ailə üzvlərini itirmiş özündən bir neçə "yeni il bayramı" böyük olan Muraddan yaman qorxurdu. Muradın kəskin soyuqqanlığı və təkbaşına sürdüyü həyat tərzi onu dəhşətə gətirirdi. Ötən il sentyabr aylarında podyezddə şahidi olduğu hadisədən sonra Ramizin ona qarşı instinktiv hürküləri daha da artmışdı. Belə ki, günlərin bir günü dərsdən tez gəlib, (yuxarı mərtəbədə bircə Murad qalırdı, İsrafilgil hələ köçməmişdilər, Murad da həmin vaxtlar işdə olardı adətən) xəlvətcə yuxarıda papiros tüstülətmək fikrinə düşmüşdü. Pilləkanları tam qalxmamışdı ki, doqquzuncu mərtəbədən gələn qapı cırıltısı və sakit pıçıltı səsi eşitdi. Yavaş-yavaş addımlarla, qozbel şəklində pilləkanları adlayıb yuxarı boylandı. Gördüyü şeyin gözlənilməzliyindən bir neçə dəqiqə yerindəcə key vəziyyətdə qalmışdı. Gördüyü isə o idi ki, anasının yazığı gəldiyi həmin yetim Murad öz mənzilinin qapısının arxasında durub, qulağını qapıya dirəmişdi. Sanki kimisə pusurdu. Ramiz bilirdi ki, həmin evdə Muraddan başqa heç-vaxt heç kim olmurdu. "Kimi güdə bilər axı?"- deyə təşviş içində Ramiz dərhal aşağı düşdü. Lazımsız şahid olmaq istəmirdi.

Keçmiş əhvalatı yadda salıb, Muradın qapısının ağzına necə gəldiyini özü də hiss etmədi. "Şuba" salatı sağ əlində, şadlıq evlərində qulluq edən ofisantlar tək saxlamışdı. İlk öncə qapını döyməyə tərəddüd etdi. Bilmirdi ki, onu içindən sıxan, doqquzuncu mərtəbənin tünd salyarka iyli ağır havası idi, yoxsa Muradın mistik surətiylə bağlı beyninə kök salmış xof. Qətiyyət ortaya qoyub, qapını üç ardıcıl tuqqultu ilə döydü. Bir cavab

gəlmədi. İkinci dəfə bir qədər bərkdən döyməyi qərara aldı. TUK-TUK...üçüncü TUK-dan sonra qapı çərçivədən sanki bir qədər aralandı. Sən demə qapı bayaqdan açıq imiş. Qapını aralasa da içəri girməyə qorxdu, başını içəri qorxa-qorxa dürtüb, " Murad dayı! Ay Murad dayı, qonşudur eh, gəlməy olar?" –deyə səsləndi. Heç bir cavab çıxmadı. "Yəqin harasa çıxıb"-deyə düşündü. Əvvəl evə qayıtmaq istədi. Fikirləşdikdən sonra ki, belə olduğu təqdirdə anası bir neçə saatdan sonra (anası əqrəb bürcündən olduğu üçün əksər bu bürcdə doğulanlara xas olaraq çox tərs idi) onu yenidən bu vahiməli adamın yanına göndərəcək, qərara aldı ki, elə sovqatı masanın üstünə qoyub evə qayıtsın. "Qoy elə bilsin Şaxta Baba doğrudan da mövcuddur"-qorxunu neytrallaşdırmaq məqsədilə özünü əyləndirməyə çalışdı. Qapını tam açıb içəri daxil oldu. Qapını örtməyib ala-qaranlıq dəhlizlə yaxında olan otağa doğru kor-koranə addımladı. Qonaq otağında sanki televizor yanılı qalmış kimi, mavi göy işıqlar yanıb-sönürdü. Həyəcan içində olduğundan ayağı qatlanmış kavralitə büdrədi, az qaldı əlindəki salat qabı qarışıq gəlsin üzü üstə yerə. Bir təhər müvazinəti saxlayıb özünü qonaq otağına çatdırdı. Evin pərdələri elə tünd parçadan idi ki, günəşi pəncərədən içəri ötəri baxmağa da qoymurdu. Otağa tez-bazar göz gəzdirən Ramiz əvvəl qorxmuşdusa gördüklərindən sonra bir az da rəngi qaçdı. Otaqda salat qabını qoymağa heç bir masa yox idi. Ümumiyyətlə televizoru çıxmaq şərtilə dörd divar və köhnə-didilmiş parketdən başqa heç bir şey yox idi.

- Atana ləhnət Nataşa!- deyə dostları arasında təzələrdə dəb düşmüş məsəli işlətdi. Bilmirdi ki, bu qədər həyəcandan sonra evə qayıtsın, yoxsa işini sonraya qoymayıb, digər otaqlara da göz gəzdirsin ki,

bəlkə salatı qoymağa yer tapdı. Axı nədə olsa bərəkəti yerə qoymaq olmazdı.

Birdən gözünə televizorun ekranında gedən görüntü sataşdı. Əvvəl elə diqqət yetirmədiyindən elə bilmişdi ki, sadəcə olaraq televiziya kanallarından birinə qoşulub. Ekranda gedən isə köhnə lent yazısı idi. Muradgilin ailəsinin xatirə kasetləri. Çox güman ailənin birgə çəkdirdiyi sonuncu video yazı idi. Belə ki, bütün ailə üzvlərinin bir masa arxasında olması, ekranın aşağı sol küncündə tarix yerində ağ şriftlərlə göstərilən 12/05/2005 yazısı buna sübut ola bilərdi. Murad lentdə çox gülərüz və şadiman görsənirdi. Lenti yazıya alan operator (çox güman elə öz qardaşı İsmayılidi) demək olar ki, yalnız şıltaqlıq edən, deyib gülən, gah anasını gah da atasını qucaqlayan, çox səliqəli geyinmiş və şıqq görünən Muradı obyektivə alırdı. Desəydilər ki, ailə üzvlərini itirməzdən əvvəl Murad belə gözəl enlikürək dəliqanlı idi, heç inanmağı gəlməzdi. Axı 2005-ci ildə,(o vaxtlar Muradın bütün ailə üzvləri həyatda idi) Ramizin özünün hələ balaca idi. Azyaşlı uşaq isə ətrafda olanları qeyri-iradi və iradi psixoloji təhlil etmir. Ona görə ömründə Muradı belə nikbin görməmişdi. Hal-hazırkı Murad qaş-qabaqlı, solğun sifət, sifətinə çıxan tüklər necə gəldi çıxan, səliqə-səhmansız bir sirli gədə idi. Sanki gipnoz altında bir neçə dəqiqə gözlərini həmin yazıdan ayırmadı. Ta,....

“Tarrraaaappp....” elə bil Ad qövmünün başına gələnlər təkrarlandı həmən otaqda. Dəhlizdə olan antresoldan çox ağır bir şeyin döşəməyə düşdüyünü hiss etdi. Ramizə elə gəldi, ürəyi bu dəqiqə ağzından bayıra çıxacaq. Yerində qurumuş şəkildə durub sadəcə, hündür məsafədən iki qıçı üstə döşəməyə tullanıb, tədricən adi duruş vəziyyətinə qayıdan qara siluet tərəfə baxdı. Siluetin isə kimə məxsus olduğunu tapmaq o qədər də çətin

gəlmədi Ramizə. Yalnız bircə kəlmə eşitdi qaranlıqdan peyda olmuş siluet tərəfdən:

- İndi də səni göndəriblər...insanları necə aldatdığınız mənə məlumdur? Bu suiqəsdin üstünü axır-əvvəl açmalıyam.

Ramiz mürəkkəb cümlələrdən bir şey anlaya bilmədi. Siluetin bayaqdan arxasında gizlətdiyi parıltılı alət aydınca görsəndi. Bu təp-təzə polad qaz açarı idi. Siluet Ramizə tərəf o qədər çevik şəkildə hərəkət etdi ki, Ramiz heç qımıldamağa da macal tapmadı. Hörümçək toruna düşmüş və zəhəri ilə paralizə olunmuş şikar tək qatilinin gözlərinə baxdı. Siluetin Murad olduğuna əmin olmuşdu ki, son sözünü demədən gözlərini həmişəlik yumdu.

## IV FƏSİL
## Variasiya

### Hazırkı zaman

"Bizim" çay evi qlavpoçtun arxasında rəngarəng, işıq effektli və vinilli reklamlarla bəzədilmiş müştərili obyektlərin qonşuluğunda yerləşirdi. Adı çəkilən çay evinin super baxımlı reklam lövhəsi olmasa da (əslində çox pis gündə olub, "Bizim" sözünü o qədər toz-ləkə basmışdı ki, "B" hərfindən əsər əlamət qalmamışdı) bircə özəl xüsusiyyəti var idi ki, çay evində daimi müştərilərdən başqa nadir hallarda kimsə olardı. Əksəriyyəti də işsizlər, son ümidini totalizatorlara pənah etmiş sosial zəlillər idi. Bircə bicikləri vardı bu çay əhlinin. Arvad seriallara rahatca baxmaq dərdindən əri "Ged iş axtar...evdə balaların acınnan qırılır!" deyə günün günorta çağı çölə

atması, qışın şaxtasında çöllərdə donmamaq üçün bunu ən son əlac bilirdi. Özlərinə həm-dərd - eyni bəxti yaşayan kolleqalar tapıb, atışır , bir manatdan bir çaynik çay içirdilər, sonra axşama kimi masanı məşğul edib, istidə qızışırdılar. Günün ikinci yarısında isə "Şəkili" başlarının ətrafında gah o yana gah bu yana getdiyini görüb, naəlac şəkildə simvolik olaraq ikinci çaydanı gətizdirirdilər ki, getməli yerləri olmadığından bir azca da qızışıb yenidən evə qalxsın və arvadın evə gətirdiyi pul hesabına hazırlanan yeməkdən dadsınlar.

Rüstəm kişi bəlkə bu çay evinin yeganə fərqli müştərisi idi. Qasidi bağlayıb, birinci növbədə Bizim çay evinə təşrif buyurmağa vərdiş etmişdi. Bir-iki stəkan xoruzquyruğu çay içib nərd oynar, canlı futbol oyunu gedən zaman bir az matç yayımını izləyərdi.

Saat yeddi yox idi, Rüstəm kişi köşkün işığını söndürüb, qapını arxadan qıfılladı. "Müştəri" üçün cari həftənin televiziya yayımlarının qısa icmalını hazırlamaq məqsədilə, Vasmoy bazarından topdan ucuz qiymətə video kaset alıb, köşkdə, kiçik masasının üstünə yığdığı boş VHS kaset topasından 3 dənəsini içi görükməyən salafana sarıyıb, özüylə gətirmişdi. Köhnə həftənin yazılıb hazırlanmış icmalını "müştəri" gəlib aparmamışdı hələ. "Yəqin sabah gələcək"-deyə ürəyə salmadı. Köşkdən tam ayrılmamışdı ki, daimi müştərilərdən biri, orta yaşlı, dolu, istər yay, istər qış olsun, xristian mərhumların kəfəninə bənzər tünd qara kostyum geyməyə vərdiş etmiş, üzərindən zəhrimar tökülən bir kişiylə toqquşdu:

- Rüstəm kişi, bağladınmı?

- Görmürsən.

- Ay da, Paritet qəzetində oğlumun şeri çıxıb. Gərək mütləq məni sevindirəsən. Köşkü aç sənə on qəzetin pulunu verim, bax bu ölsün.

-Sən mənim canım, oğlun şerinin çıxmağı üçün nə qədər  görüb redaktoru.

-Oğlumun cəmi yeddi yaşı var,...yeddi yaşında uşaq rüşvət verər heç...saqqalına yaraşan söhbət deyil Rüstəm kişi

-Hmm...Necə olur, yeddi yaşlı uşaq şer yaza bilər, rüşvət verə bilməz?

-Yaxşı da, şeri anası yazıb, deyir qoy oğlunun adına çıxsın ki, müəllimlərinin və sinifyoldaşlarının paxıllıqdan bağırları çattasın. Tanıyırsan da bu arvad tayfasını, hər şeydə birinci olmaq istəyirlər. Redaktor da yerlimdi, dedi "  iyirmi manat dilxoşduğ elə, oğlunun şeri arxa manşetdə getsin, fitri istedad bölməsində, atamın goruna and olsun hamsı baş redaktora çatır, öz pulumu səndən almıram"

Rüstəm kişinin yadına düşdü ki, makler Aslanla dünən təyin olunmuş nərd oyununa gecikir.

-Sən mənim daimi müştərimsən, sənə canım da qurban. Lazım gəlsə on beş dəfə də açıb-bağlaram səninçin bu budkanı. Amma neylək ki, Paritet satılmadığından keçən həftədən sifariş vermirəm.- deyə yalan danışmalı oldu - Özünü çatdır "28 May"-a bəlkə hələ bağlamayıblar.

-Oldu Rəis, arvad tapşırıb, evə qəzetsiz gəlməyim. Nə əlacım var savayı. Gecən xeyrə qalsın Rüstəm kişi

-Xeyrə qarşı –deyib küçənin döngəsinə buruldu və Bizim çay evi istiqamətində yeridi. Ağ boya ilə yaxın günlərdə rənglənmiş qapıdan içəri girdikdə, həmişəki kimi  çay evindən  Rüstəm kişini ilk öncə kəskin siqaret qoxusu qarşıladı. Özü papiros düşkünü olmadığından, onun konsentrə olmuş qoxusuna qarşı olduqca həssas biri idi. Şəkilini (çayçı) salamlayıb, pəncərənin əks istiqamətində, peçin yaxınlığında divarın bir küncünə söykədilmiş masanın başında oturmuş, nədənsə yarı zarafat yarı ciddi

mübahisə aparan makler Aslan və qonşu Fəzailin “maraqlı söz konsertinə” qoşuldu.

- Bax bu Aslan var ha, çox fırığ adamdı...Nə var şərikimdi, icarə gətirdiyim obyektin sahibi ilə sözün çəp gəlib, hirslənib “bizə xoş gəldin” deyən vaxt onunla dil-ağız olub, yalvar-yaxar olub, özünü az qalıb sürtsün yerə ki, təki bizi Azadlıq prospekti üçün sərfəli icarə qiyməti olan yerdən atmasın bayıra. Pah, kişinin oğlu ikiüzlülük edib, yaltaqlanıb, dəridən qabıqdan çıxıb ki, bizi ağ günə çıxarsın. Pah, guya belə böyük bir iş görüb. Əh mən də deyirəm, yekə kişisən əh, yüz manata görə oynadığın havaya bax. Özünü elə uşaq kimi qorxaq göstərib ki, obyektin sahibi də bundan suistifadə edib, hər dəfə bizi hədələyir, olmasızın minnət qoyur başımıza.

- Yaxşı da şişirtmə, gopçu Pirim.-deyə Aslan etiraz etdi.

- Hələ deyir, “Fəzail, mən olmasaydım biznes batmışdı”. Hmm.

Aslan bir arxaya bir yana baxdı ki, həmsöhbətlərindən başqa onlara qulaq asan var ya yox. Özünü qabağı verib vərdiş etdiyi qaydada əllərini masaya uzadıb barmaqlarını bir-birinə keçirdi.

- Rüstəm kişi, bu savadsız Fəzail ki var a, bundan heç vaxt biznesmen olmaz....qram qədər siyasəti yoxdur bunun. İndi mən sizə Maraqlı bir Afrika məsəlini deyim, məsələ tam aydın olsun.

“Afrika məsəli” sözünü eşidən kimi içərini qəhqəhə bürüdü. Hətta Şəkili də nəisə maraqlı bir söhbət getdiyini hiss edib (onsuzda onlardan başqa bir nəfər də müştəri yox idi içəridə) bir əlində dəsmal, o birində stəkan, silib-qurulaya-qurulaya üç dostun masasına yaxınlaşıb ayaq üstü qulaq verdi.

- Davam elə,... bəsdir hırılladın Fəzail! –deyə Rüstəm kişi özünü bir təhər gülməkdən daşındıra bildi.

Bir az uzun məsələdi...deyirəm sonra başınız ağramasın. Deməli biri var idi, biri yox idi...Afrikanın qızmar diyarlarından birində...

- Bu lap nağıl oldu ki, (qəhqəhə) – Fəzail özünü yenə saxlaya bilmədi.

- 4 qardaş var idi. Ataları onlara seçildiyi xüsusiyyətlərinə görə Sərrast, İtigöz, Əliuzun və Dalıyekə adları vermişdi. Bu dörd qardaş ova hər zaman birgə gedərmiş. Günlərin bir günü ət ehtiyatları bitdiyindən, tüfəngi götürüb ova çıxırlar, fil ovuna. Ancaq bir əngəlləri olur ki, cəmi bir patronları qalır. Çayın o biri sahilinə keçmək üçün qayığa minirlər. Avar çəkən zaman Dalıyekənin ehtiyatsızlığı ucbatından, qayıq silkələnir və yeganə patron diyirlənib qayıqdan çayın dibinə düşür. Patronun suya düşməyini İtigöz dərhal görür.

"Avarı çəkməyi durdurun, patron suya düşdü. Amma mən onun suyun dibində olduğunu görə bilirəm. Onun yerini sizə göstərə bilərəm. Əliuzun! Nə qədər patron tam islanmamış, cəld əlini uzat patronu çıxar sudan. Əliuzun patronu dərhal çıxarıb, sahilə aparır və günün istisində qurudur. O vaxta qədər isə qardaşlar gözləri ilə potensial ovu – filləri axtarırlar cəngəlliklər arasında. Nəhayət bir sürü filin çayın o biri tərəfində gəzişdiyini görüb tələsirlər. Patron quruduqdan sonra onu tüfəngə keçirib, şikarı vurmağı Sərrasta həvalə edirlər. Sərrast isə necə deyərlər şikarı bircə ölümcül atəşdən yerə sərir. Tez qayığa minib fil cəsədinin olduğu çayın o biri sahilinə üzürlər. Filin cəsədinə çatıb ətrafa göz gəzdirdikdə, uzaqdan bir topa buğda yeyib cənnətdən çıxmış yerli tayfa nümayəndələrinin müftə məhsula tərəf irəlilədiyini görüb təşvişə düşürlər.Dalıyekə cəmdəyinin üzərinə oturub nəhəng arxası ilə fili gizlədir. Tayfa camaatı səhrada gölün ilğım olduğuna əmin olmuşlar kimi kor peşmən gəldikləri yerə dönür. Tayfanın uzaqlaşdığını görə qardaşlar fili daşıyaraq öz kəndlərinə qayıdır.

Hər şey elə bundan sonra başlayır.

Ətdən xidmətinə görə kimə daha çox pay düşəcəyi ilə bağlı ciddi mübahisə yaranır. İtigöz deyir mən olmasaydım, patronun suya düşdüyündən və yad tayfanın gəlişindən xəbəriniz də olmazdı. Nəticədə ov da başarısız olardı. Ona görə payın böyük hissəsi mənə düşməlidir. Əliuzun isə deyir ki, bir halda ki, ov yeganə patronun sayəsində baş tutub, onu isə o həm qurudub, həm də sudan çıxarıb, ətin əksər hissəsi onun olmalıdır.Sərrast da eynilə özündən deyərək, filin yalnız onun mahir atıcılığı sayəsində ovlandığını deyir. Dalıyekə də dillənib, "nə olsun ki, patronu suya mən saldım. Əsası odur ki, mən fili gizlətməsəydim, yad tayfa onu aşkar edəcək, əlimizdən alacaqdılar, nəticədə sənin də sərrastlığın, sənin də itigözlüyün, sənin də əliuzunluğun mənasız olacaqdı. Bir araya gələ bilməyib, öz tayfalarının baş ağsaqqalına müraciət etməli olurlar. Tayfa başçısı gənc qardaşların əhvalatına qulaq asıb belə fikir söyləyir.

" Bu ovda hər biriniz əlinizdən gələni etmisiz ki, bu danılmazdır. Ancaq fil yer üzündə olan ən iri heyvandır. Ona görə də o kəs ki, onun üstünə əyləşib, onu gizlədə bilib, məhz həmin adam işin ən çətin hissəsini görmüş adam sayılır. Bu hər oğulun bacardığı iş deyil."

Bu məsəli niyə çəkdim,... ona görə çəkdim ki, bizim Fəzail qardaş mənim də xidmətimə yuxarıdan aşağı baxır...deyir ikiüzlülük edirsən, mən isə deyirəm ki, bu bir siyasətdir. Əslində mən hamıdan çox iş görürəm. Sadəcə kənardan bunu görmək olmur.Gərək məsələnin batinə varasan.Belə.

- Hə...Bambılının danışdığı anekdot, elə özü  kimi bambılısayağ  olar.. (yenidən çay evini dəhşətli gülüş səsləri bürüdü, Aslan özü də gülürdü) Şəkili bizə nərd gətir, Rüstəm kişiynən bir tas vuraq.

Rüstəm kişi Aslanın belindən zarafatyana yaxşıca zoppa vurub, "Di bəsdir, sən bu gün çox danışdın...Qoy oyunumuzu oynayaq. Sən hələ dincəl. Sənin işinə sonra baxaram" dedi və  Fəzaillə qarşı-qarşıya oturmuş Aslanın stuldan durmasını gözlədi. Aslan həmişəki kimi, "Səni dünən qazdadığım az deyil, hələ ədəbazlığ da edirsən, eybi yox, gözlərik" gileylənib oturacağ yerini Rüstəm kişiyə verməli oldu. Şəkili içində  zərlərin və daşların kolliziyasından şaqqıltı-şuqqultulu səslər çıxaran nərdi gətirib, dostların önünə qoydu. Fəzail şübhəli şəkildə nərdin solmuş taxta örtüyünü süzüb:

- Şəkili, o günkü lakirovannı nərd necə oldu?
- Gözüvu yeyim, onu sa-tdım get-di, hayindi nərdə yüz manat verən ola, bunu necə qəbul etməməy olar?!
- Siz Şəkililər hamınız beləsiz... Siz şəkililərdən yaxşı biznesmen çıxar mən ölüm...Şəki xan sarayını, imarət adıyla özbək milyonerə  satan siz deyildiz?!....Əşi başla görüm, Rüstəm kişi – deyə nərdin qabağını açmışdı ki, hay-haraylı on-on iki yaşları arasında bir yeniyətmə şütüyərək içəri girdi. Təngnəfəs şəkildə Rüstəm kişinin önündə durub, əllərini dizləri üstünə qoydu və dərindən hava udmağa başladı. İçəridəkilər təşvişə düşdüyündən dərhal yerlərindən qalxıb, uşağı dövrəyə aldılar.
- Şəkili tez su gətir...

Şəkili cəld olaraq çay evinin mətbəx hissəsinə atıldı və tez bazar qrafindən bir stəkan qaynanmış su töküb özünü "hadisə yerinə" yetirdi. Həyəcan həmişə soyyuqqanlı davranan "Şəkilinin"də qapısını döymüşdü, ağzı dolu

armudu stəkanı qaçan zaman oyan-buyana o qədər yelləmişdi ki, suyun yarısından əsər -əlamət qalmamışdı. Stəkanı uşağa uzatmışdı ki, trasdan çıxan dəhşətli çırpıltı səsi uşaq daxil olmaqla içəridə olanların ürəyini yerindən oynatdı. Özlərindən asılı olmayaraq çöldə nəyin baş verdiyini öyrənmək ürəklərində keçsə də, yəqin yenə maşınlar toqquşub deyib, uşağın belə halda içəri girməyinin məqsədini öyrənməyə üstünlük verdilər. Uşaq suyu udan kimi, ətrafındakılar gözündən yaş gələ-gələ əhvalatı danışdı. Rüstəm kişi balaca gədəni tanıdı. Bu oğlu Yasinin məhlə uşağısı idi.

- Rüstəm əmi, ...Yas...Yas..Yasini bir dayı apardı.
- Nə...Necə yenə apardı? Hara apardı. – Rüstəm kişi başa düşdü ki, Yasin doğulandan bəri ən çox qorxduğu, dualarında "bircə belə olmasın" deyə Allaha yalvardığı şey gəlib başına.

***Prosopoaqnozia*** – daha doğrusu sifət aqnoziyası. Bu Rüstəm kişinin Yasinin bağça dövrlərindən bəri ailələrini dərdə qərq etmiş əsas mövhum idi. Üçyaşlı Yasin yaşına görə digər bağça uşaqlarından çox iri və yetənək uşaq idi. Dili də bir o qədər tez inkişaf etmişdi. Acı-zəhərli, söyüşlü dili ilə müəllimləri daima çıxılmaz vəziyyətlərə salardı. Beş gün də həmişəki kimi keçsə idi, Yasin də bütün digər uşaqlar kimi normal həyat sürəcəkdi. Amma neyləmək olar ki, bağça müəllimlərindən biri Yasinin ürək cızıldadan söyüşlərindən təngə gəlmiş, dözməyib Yasinə var gücü ilə qapaz vurur. Əli çox ağır olduğundan, Yasinin başı şapalağın təsiri ili arxa divara çırpılır. Nəticədə uşağın beyninin sağ yarımkürəsinin ənsə hissəsində olan bir sıra görmə və qavrama arasında körpü rolunu oynayan həssas hüceyrələrin fəaliyyətində pozuntu yaranır. Həkimlər uşağa aqnoziya – yəni yunan dilindən "tanımama" sindromunu diaqnoz

qoyurlar. O vaxtdan uşaqda insan sifətləri, insan simalarını tanımama xəstəliyi var. Yazıq uşaq bütün günü ata-anasının yanında olduğu halda belə, səhər oyandıqda heç birinin sifətini tanımır. İş orasındadır ki, istər görmə qabiliyyəti, istər sə də qavrama qabiliyyəti ayrılıqda tam normadadır, sadəcə bu iki faktorun arasında olan tarazlıq pozulub. Beləcə minlərlə dollar müalicənin heç bir xeyr vermədiyini görüb, Yasini əlil olaraq yalnız ev şəraitində saxlamaq məcburiyyətində qalırlar.

- Necə yəni apardı... Hara apardı...Kim idi o əclaf...Görünüşü yadında qaldı.

Su içdikdən sonra özünə gəlmiş yeniyetmə artıq aramla:

- Siz həmin adamı tanımamış olmazsız...Qaş-qabaqlı biridir, hər zaman Sizdən bir yığın qəzet alır.

Nədənsə Rüstəm kişinin ağlına dərhal "müştəri" gəldi.

- Hansı istiqamətdə getdilər?
- Yolu keçib, bulvara tərəf getdilər...Yasinə yallannan dedi ki, sənin atan Rüstəməm.

Rüstəm kişi bəlkə on ilə yaxın olardı ki, beş metrə məsafəni də qaçmamışdı. Ancaq indi əsəbdən ona elə güc gəlmişdi ki, bunca ağır bədən, bunca bədənin həqiqi-fiziki yaşı ilə, sıçrayaraq, çay evinin qapısına tərəf atıldı. İçəridəkilər və yeniyetmə isə lal-dinməz çayçını tərk edən çılğın Rüstəm kişini baxışları ilə yola saldılar.

Rüstəm kişi qapıdan çıxan kimi çay evinə daxil olan biri ilə toqquşdu. İkinci Rüstəm kişidən daha çox diksindi. Toqquşduğu adamın sifətinə ötəri nəzər saldıqda gözlərinin dediklərinə inanmadı. Bu həmin "daimi müştəri" idi.

***                    ***                    ***

Rüstəm kişi o dəqiqə "müştərinin" yaxasından yapışıb, onu divara sıxdı.

- Əclaf, oğluma neyləmisən, tez ol cavab ver görüm, oğlumu hara aparmısan?
- Sən nə danışırsan ay kişi, sənin oğlun nə işimə gərək,...kasetdəri almağa gəlmişəm,...iş yerini ki, vaxtından qabaq bağladın, mən gələndə də köşkün bağlı olduğunu gördüm. Qonşu marketdən soruşdum, dedilər "Rüstəm kişi işdən sonra birinci Bizim çay evinə gedir...Mən kasetlərin dalınca gəlmişəm. Onları gərək mütləq mənə çatdırasız

"mənimlə ünsiyyəti yoxdursa adımı hardan bilir" –deyə Rüstəm kişi özlüyündə fikirləşdi. "Müştərinin" səmimi danışdığını hiss edib onu buraxdı.

- İndi kaset vaxtı deyil, mənim başıma iş gəlib,...oğlumu hansısa oğraş qaçırıb.- deyib bir neçə saniyəyə bulvar istiqamətində gözdən itdi. "Müştəri"nin həmişəki tək soyuqqanlı şəkildə xeyli müddət oğlunun xilasına qaçan Rüstəm kişinin arxasınca baxdı.

***                    ***                    ***

Qlavpoçtun döngəsindən burulmuşdu ki, mobil telefonuna gələn zəng onu durmağa vadar etdi. Telefonun displeyinə baxıb orada zəng edənin adı yerindən ingilis dilində "Call-1" yazısını oxudu. Belə olanda bilirdi ki, gizli nömrədən zəng vurublar. Ürəyi sanki bir neçə saniyəlik donmuşdu. Nəfəs alıb-verməsi tənzimlənməmiş telefonunun YES düyməsini basdı. İlk öncə xəttin qarşı tərəfindən sanki ilkin kəşfiyyat işi aparılırmış kimi, bir

səs-səmir çıxmadı. Qaçmaqdan üzünə qan vurmuş Rüstəm kişinin yanından keçənlər ona qəribə-qəribə göz zilləyirdilər. Bir sarışın ortayaşlı qadın heç utanmadan hələ çevrilib baxırdı da. Rüstəm kişi bir neçə dəfə Alo, Alo dedikdən sonra qarşı tərəfdən öz səsinə lap oxşayan – elə bil olmayan əkiz qardaşının səsi idi- bir qalın kişi səsi eşidildi: "Alo, Rüstəm müəllimdi danışan?". Rüstəm kişiyə o dəqiqə aydın oldu ki, prosopaqnoziya sindromlu oğlu atasının simasını yadda saxlamaq baxımından qüsurlu olduğundan onu qaçıran yad adamın səsinin atasının səsinə oxşamasına allanıb.

- Hə, Rüstəmdir danışan...Sən kimsən?
- Konkret keçirəm əsas məsələyə...On beş dəqiqəyə- istəyirsən ayaqla, istəyirsən təyyarəylə, mənə heç bir fərqi yoxdur...özünü çatdırırsan Fəvvarələr meydanının arxasındakı köhnə Erməni kilsəsinə,...səndən pul-zad qoparmaq fikrimiz yoxdur. Başqa məsələdir. Amma bil ki, oğlunun həyatı indi sənin əlindədir.
- Sən kimsən...Allah sənə lənət eləsin, nə imansız adamsan, xəstə uşağı qaçırmısan, səni tikə-tikə doğramaq da azdır...

Söyüş dolu söz ardıcıllığını bitirməmişdi ki, qarşı tərəfin dəstəyi qoyduğunu eşitdi.

Artıq beynində tormozlanma gedirdi, başını tam itirmişdi. Yada sala bilmirdi ki, Erməni kilsəsinin yanından axırıncı dəfə nə vaxt keçib. Hər halda MUM-un yaxınlığında olacağına şübhə etmirdi. Bircə şey maraqlı idi ki, onun qarşısına niyə belə qısa vaxt tələbləri qoyulmuşdu. Taksiylə gedəsi olsaydı, onsuzda şofer Neftçilər prospektindən Azneftə, ordan yuxarı Baksovetə, ordan aşağı İstiqlaliyyətə,sürəcək - təkcə bu marşrut ən azı iyirmi dəqiqə vaxt aparacaqdı. Üstəlik tıxacda ilişib qalma ehtimalı da

böyük idi. "Lənətə gəlsin bu yaramazlar"-deyə yerindəcə fikirlərini cəmləməyə və daha səmərəli fikirləşməyə çalışdı. Ən azından yarım saat versəydilər... Heç olmasa çoxdan bəri görüşmədiyi amma çox əl-çatar dostu olan Nizami rayon Polis İdarəsinin Cinayət Axtarış şöbə rəisinə də kömək üçün müraciət edə bilərdi. Amma tərəddüd edirdi ki, bir neçə dəqiqə geciksə, gözünün işığı olan Yasin oğlunu itirə bilərdi. Beynində ayaqla qaçaraq qət etməli olacağı marşrutun planını cızaraq ən qısa yolla hərəkətə başladı.

***   ***   ***

Bir neçə dəqiqə fazla qaçsaydı, bəlkə ürəyi param-parça olacaqdı. Rüstəm kişi telefonun saatına baxdıqda müəyyən etdi ki, artıq beş dəqiqə gecikib. Uzun müddət istifadə olunmayan Erməni kilsəsinin hündür hasarının yanında durub darvazanı axtarırdı. Paslanmış dəmir darvazaya çatdıqda onun yarı bağlı olduğunu gördü. Qapısı yarımçıqdan da azca açıq olub arasından dəmir zəncir keçirdi. İçəri girməzdən əvvəl ətrafa göz gəzdirdi ki, görəm onu görən varmı. Yalnız İSR Plaza tərəfdən bir Qərbi Avropalı turistin öz pudeli ilə yellənə-yellənə əlli metr aralıda ona tərəf hərəkət edirdi. Yarımçıq qapını yalnız yanakı, özü də ki, əyilərək keçmək olardı. Əyilib yöndəmsiz şəkildə içəri keçdiyindən qalın dəmir zəncir onun alnını xəfifcə cızdı. Əhəmiyyət verməyib kilsə həyətinin içinə ayaq basdı. Kilsənin həyətyanı sahəsi o qədər də böyük deyildi. Bəlkə burada hər hansı bir ayin keçiriləsi olsaydı, kilsənin çölünə ən çoxu əlli nəfər yerləşərdi-yerləşməzdi. Kilsənin həyətində asfalt qatı dağıldığından, həmin yerlərdən xaotik şəkildə gicitkan, yabanı kol-kos yetişirdi. Hara baxırdın salafan kulyok, kağız tullantıları və şprits idi. Kilsənin girişindəki şkaturda tökülmüşdü. Binanın qırmızı kərpicdən tikildiyini görmək olurdu. Taxta

qapısı da olduqca eybəcər görükürdü. Qapının ağzında nəhəng bir siluet peyda oldu, mundirdən məlum oldu ki, polis nəfəri idi. Rüstəm kişi ağzını açmaq istəyirdi ki, polis nəfəri sanki özü onu gözləyirmiş kimi:

- Düz yeddi dəqiqə gecikmisən...gəl dalımca -dedi.

Səs telefonda onunla danışan həmin səs idi. Bu Rüstəm kişini tam çaşqın vəziyyətə saldı. Polisin paqonlarına nəzər saldıqda orada böyük ay ulduz gördü. Əmin oldu ki, bu adi polis serjantı deyil.Kilsənin taybatay açıq qapısında kilsənin dəhlizinə keçdilər. İçəri keçən kimi Rüstəm kişi kilsənin içinin çölündən soyuq olduğunu duydu. Foe kilsənin dua zalına açılırdı. İçəridə yalnız bir neçə şam yandığından içəri alaqaranlıq idi. Bununla belə hər iki tərəfdən ətrafında olan sınığ-salxaq skamyaları və yırtıq kavraliti seçə bildi. (Şamların quruluşundan anlamaq olurdu ki, bu heç də atılmış kilsənin fəaliyyətinə xitam verildiyi gündən qalan şam deyil, gövdəsi əlvan rəngdə idi) Kilsənin başında çarmıxa çəkilmiş Həzrəti İsanın nəhəng heykəli dururdu. Birdən rahibin köşkünə kiminsə söykəndiyini gördü. Bəli bu soyuq olmağına rəğmən taxta döşəməyə əyləşib, belini taxta köşkə söykəmiş, Yasin idi. Polis dərhal üzünü ona tərəf çevirdi.

- Sakit ol indi hamsını sənə başa salaram- deyə əmr yüklü tonla dilləndi.
- Sən mənə nəyi başa salacaqsan əclaf- deyə polisin sifətini sol yumruq vuracaqdı ki, polis mayoru onu qabaqlayıb, çənəsinə beton ağırlı zərbə endirdi. Rüstəm kişi yerə sərildi, başı zərbənin ağırlığından yaman gicəllənirdi. Gözünün mərkəzləşməsi qaçmışdı.
- Mən sənin oğlunu qaçırmağa məcbur idim Rüstəm, sən mənim bu çıxılmaz vəziyyətdən qurtarmağım üçün yeganə əlacımsan.

Rüstəm kişi hələ də bir şey başa düşmürdü.

- Söhbət böyük pullardan gedir. Sənin ikinci vəzifənin xəttat olduğunu demişdi sənin yaxınlarından biri. Mənə təcili sənin imzan lazımdır...imzan deyəndəki gərək- birinin imzasını necə var üzünü köçürəsən o biri sənədə.
- Yəni saxtalaşdırım...-deyə acıqlı şəkildə Rüstəm kişi gileyləndi...nə sənəddi elə?
- Mülki etibarnamədir. Rusiyada yaşayan əmimoğlu bir neçə həftə bundan qabaq Bayıldakı xırda torpaq sahəsini mənə satmağı etibar edib, notarial qaydada Perm şəhər, Dzerjinski rayon notariusunda təsdiq edib. Bircə notarius axmağın biri olduğundan, dayım oğlumun imza atıb-atmadığına fikir verməyib (hər ikisinin yadından çıxıb)...

Rüstəm kişinin fikirləri nə qədər dolaşıq olsa da, eyni adamı əvvəl ***əmioğlu***, sonra ***dayıoğlu*** adlandıran ona oxşar səsli polisin dediklərində artıq çirkin bir qəsd olduğunu uzaqgördü.

- ...Üç gün bundan qabaq isə dayıoğlu müəmmalı şəkildə qətlə yetirildi. Etibarnamə qoşmalı konvert mənə yalnız dünən çatdı və bu çatışmamazlığı aşkar etdikdə başımdan tüstü çıxdı. Onun mənə külli miqdarda borcu var idi. Əvəzində həyətini mənə gendoverrenostlya verməyi söz vermişdi. Hardan biləydim ki, notarius belə tupoy ola qol-çəkdirməyə ona,...Bakıda belə sənədi ömrü boyu qəbul eləməzlər...Üstəlik mənim borclarım da yığıb məni boğaza, gərək mütləq bir günün içində onu notarial qaydada tərcümə etdirdikdən sonra yenidən etibar edim digər şəxsə (borcum olan adama) – o dakı böyük adamdı, bıçağı az qala boğazıma dirəyib ki, pullarını qaytarım.

Polis rütbəsinə görə çox cavan görükürdü. Rüstəm kişi artıq hər şeyə diqqətlə qulaq verirdi ki, xırda detalı belə nəzərdən qaçırmasın.

- İmzası asan çəkilən bir şey olsaydı dərdyarı, elə qəliz imza çəkirdi ki, rəhmətlik, elə bil Barcelona klubuyla müqavilə bağlayır. Bizə lazım olan odur ki, imza onun rus pasportunun təsdiqlənmiş kopyasında olduğu kimi etibarnamədə də imza yerinə çəkilsin. Özüm nə qədər çəkdimsə, heç nə allınmadı. İmza dəqiq olmalıdır. Əks halda bizim notarius tutuşdurduqda imzanın oxşamadığını görəcək.

Rüstəm kişi artıq dözməyib:

- Sən ümumiyyətlə bilirsən heç nə danışdığını...Necə yəni kiminsə imzasını çəkmək...Sən məni maygülü sanırsan nədir?! Mən heç bir yerə qol-zad çəkməyəcəm. Skamyanın dirəyində tutub qalxmağa çalışdı. Mayor çevik hərəkət edib, şalvarına arxadan keçirdiyi koburadan gümüşü tapancanı çıxarıb, soyuqdan tir-tir əsən Yasinə tərəf tuşladı.

Tapanca üçün Yasinlə arasında olan məsafə çox böyük olsa da, Rüstəm kişi dərhal şeş qoşanın polis zabitində olduğunu başa düşdü. Ya qol çəkəcəkdi, ya da ki, gözünün bəbəyi oğlunun qanı çıxacaqdı. Rüstəm kişi manevr edib, tapancanı zabitin əlindən çırpması üçün çox qoca və gücsüz idi. Həm də ən azı yeddi addımlıq məsafə ayırırdı qeyri-adeqvat şərait həmsöhbətlərini. Rüstəm kişi tam dilemma qarşısında idi.

- Oğlumla işin olmasın...biz bir təhər razılığa gələrik. Qoy o çıxıb getsin!
- Kəs səsini...Onsuz da çəkməlisən...Əks halda oğlunun gülədən sağ-salamat yeri qalmayacaq. Onsuz da tapanca mənimki deyil.

Polis zabiti çox həyəcanlı vəziyyətdə idi, sifətinin əzələləri kobud şəkillərə düşür, sağ gözü atırdı,...qan sərasər sirayət etmişdi üz dərisinin hər bir toxumasına. Gözlərini artıq Rüstəm kişiyə əvvəlki kimi zilləmirdi. Özünə əminliyi sanki bir-iki-üç deyiləcək vaxt ərzində tam yoxa çıxmışdı. Hadisələrin ardıcıllığı plan üzrə getmədi, və ya Rüstəm kişi onun gözləntilərinə əks olaraq tez təslim olaraq onu çaşdırdı və ya gözlənilən bir şey baş vermədi. Gözlərinin tədricən bərəldiyini aydınca sezdi Rüstəm kişi. Bəlkə biri arxadan XOX eləsəydi, dərhal tətiyi çəkəcək hala gəlmişdi. Həyəcanlar tarımda idi.

Arxaya gedə-gedə, kilsə dəhlizini əsas zalla birləşdirən qapı çərçivəsinin önündə durdu. Əlləri titrəyə-titrəyə pencəyinin cibindən çox güman qol-çəkiləsi saxta sənədi çıxarırdı ki, qaranlıq dəhlizdən iri bir əl onu ağzını arxadan bağlayıb möhkəmcə sıxdı, o biri əl isə başına ağır alətlə eşidiləcək dərəcədə möhkəm zərbə endirdi. Zabit dərhal yerə sərildi. Rüstəm kişinin ürəyi partlayacaqdı. Qaranlıqda o nəhənglikdə polis zabitini yıxanın kim olduğunu bilmək istəyirdi. Zabit nəfəs alırdı. Çox güman sadəcə ağır zərbədən huşunu itirmişdi. Maraqlısı onda idi ki, kəlləsinin heç yerindən qan açılmamışdı. Potensial xilaskar yavaş-yavaş qaranlıqda işığa doğru təcəlli etdi. Siluetindən cavan adama bənzəyirdi. İnanmaq nə qədər çətin olsa da bu, əlində bir neçə qat qəzet bürünmüş dəmir parçası tutan "müştəri idi".

- Çoxlu kağız sarıdım ki, əclafı öldürməyim

Rüstəm kişi ilk öncə kilsənin rahiblərin çıxışı üçün nəzərdə tutulmuş taxt hissəsinə qaçıb, Yasini bağrına basdı. Telefonunun işığı ilə bədəninə tez-bazar göz gəzdirdi ki, hər hansı bir xəsarət alıb-almadığını bilsin. Artıq oyanmış Yasinin boynunu qabırğasına sıxıb birlikdə, polis mayorunun

üstünü yoxlayan "müştərinin" yanına gəldilər. Sallağı oturmuş "müştəri" arxasında durduqlarını hiss edib, yerindən qalxmadan üzünü çevirdi.

- Bu heç polis-molis deyildi...Vəsiqəsi də yalançıdı. Möhür şəkil skan olunub, özüdə photoshopda işləməyi təzə öyrənən "balıq" hazırlıyıb bu saxta sənədi yüz faiz. Adi uşaq da düzgün vəsiqə olmadığını seçə bilər...Bilirsiz belə sənədləri laminasiya ed....- boğazında möhkəm caynaqları hiss etdi. Tədricən boğulurdu. Polis mayoru yerindəcə başının üstündə duran "müştərini" var gücü ilə boğurdu. Qaranlıq olduğundan əvvəl Rüstəm kişi heç nə başa düşmədi, sadəcə xırıltı səsləri eşidirdi ("müştərinin" telefonunun işığı sönmüşdü). Əlini "müştərinin" belinə qoyub nə olduğunu yoxlamaq istədikdə, iki möhkəm qaynar əlin ilan tək "müştərinin" boğazına sarıldığını duycaq, var gücü ilə yad əlləri didişdirdi,...xoşbəxtlikdən dırnaqlarını vaxtında tutmamışdı.

Bircə onu bildi ki, polisin potaş barmaqlarını elə var gücü ilə sıxdı ki, dırnaqların cızıltı ilə ətinə necə daxil olduğunu qulaqları ilə eşitdi. Sinir sistemi avtomatik olaraq ağrını polisin beyninə ötürüb, reflektiv olaraq əl əzələlərini boşaltdı. Nəfəsi çatmayan, və yəqin ki, al rəngə boyanmış "müştəri" özü də dərhal polisin yanına sərilərək, sudan çıxmış balıq tək nəfəs almağa başladı. Vəziyyətdən istifadə edib, ayağa qalxan yalançı polis Rüstəm kişinin nəsil artıran yerindən sərt təpik vurub, çevikcə kilsənin dəhlizindən yoxa çıxdı.

Beləcə saxta polis qaçıb canını qurtardı. Rüstəm kişidə naəlac ağrıdan qarnını tutub dalı üstə tozlu döşəməyə oturdu. "Müştəri" demək olar ki, özünə gəlmişdi artıq. Yasin qaranlığa tab gətirə bilməyib, kilsəni xəlvətcə tərk etdi. Onsuz da hələ tam əmin deyildi ki, polislə savaşan həqiqətən də

onun atası idi, ya yox. Rüstəm kişi burnundan maye axdığını hiss elədi. Tərslikdən burun dəsmalı qoymamışdı cibinə. Ovucunu dodaqla burun arası hissəyə sürtüb silməyə çalışdı. Məlum oldu ki, burnundan gələn adi burun suyu deyil, təzyiq-əsəbdən açılan qan idi. Tez-tez halbahal olurdu. Yaxınlaşıb "müştərinin" qoltuğuna girdi və sürtünməklə divardakı ştukaturu tökə-tökə bir təhər qaranlıq dəhlizə daxil oldular.

Dəhlizin içi əsas zalla müqayisədə daha isti idi,əgər buna isti demək olardısa. "Müştəri" naəlac şəkildə bir əlini Rüstəm kişinin boynuna sarısada, digər əli daima sol cibində qurdalanırdı. Elə bil istədiyi şeyi tapmağa çalışsa da, cibin içinə baxmadan, bu tapşırığın öhdəsindən gələ bilmirdi. Rüstəm kişini elə vahimə bürümüşdü gəl görəsən. Arxaya baxmaq istəyirdi amma baxa bilmirdi. Bununla belə, arxadan bu saat kiminsə çıxıb onları diksindirəcəyini düşünürdü. Hərəkət edə-edə arxaya boylandı. Zalda yanan bir iki şamın parafini qurtarmaq üzərə olduğundan, dua zalında gözlə heç nəyi seçmək olmurdu.

Küləyin təsiri ilə oyan-buyana hərəkət edən şam işığının əksi zalda qəribə və tükürpədici kölgə effekti yaradırdı. Yalnız "yəqin şamın kölgəsi idi" deyə özünü inandırmağa çalışırdı.Bir neçə saniyə əvvəl arxadan sürətlə ötüb keçmiş kölgənin sadəcə şamın işıq çalarları olduğunu güman edib nəzərlərini yenidən kilsədən çıxacağa yönəltdi. Çölə çıxdıqda hər ikisinin gözləri sanki gecə ovuna çıxmış yarasa tək itiləşdi. Ətrafda baxmalı elə bir şey olmasa da, hər şeyi aydın seçdilər.

Kilsənin həyətini tərk edib, qaranlıq küçəyə çıxan kimi əlini müştərinin belinə dostcasına qoyub:

- Heç bilmirəm sənin xəcalətindən necə çıxım. Oğlumu xilas elədin...Sənə ömürlük borcluyam...Bəs de görüm, necə xəbər tutdun, bu məsələdən

“Müştəri” ilk dəfə olaraq gülümsədi:

- Əslində heç nədən xəbər tutmamışdım. Sadəcə mənimlə toqquşanda, sizin dalınızca düşməyə qərar verdim. Dedim bəlkə işinizi gördükdən sonra, mənə köhnə qəzetləri verərsiz. Kilsənin içinə girdiyinizi görüb, məsələnin çox ciddi olduğunu anladım. Binanın altından  dəmir parçası tapıb, pusquya çıxdım. Sonrasını da özünüz bilirsiniz. Sizdən əvəzindən heç bir şey istəmirəm. Bircə keçən həftəki qəzetləri mənə verin və mənə söz verin ki, sizin vaxtı keçmiş qəzetləri nə üçün oxuduğumu soruşmayacaqsız.
- Əlbəttə bala, sənə bütün qəzetlər qurbandı. Nə vaxt istəsən gəl, atamına qəbrinə and olsun, sənnən bir daha pul alsam mənə daha nə deyirsən de.

Yasinə həqiqi atası olduğunu inandırdıqdan sonra, birlikdə taksi tutub, Azadlıq prospektinə qayıtdılar.

***   ***   ***

Gecənin gur sarı-qırmızı işıqları şəhərə möhtəşəm görünüş verirdi. Həm də gecənin gəlişi ilə küçələrin, məhəllələrin səhər görükən əyər-əksikləri sanki sübhədək yoxa çıxırdı.Əksər dükanların, şopların, bahalı obyektlərin, Dell mağazasının, Nar mobile diller dükanının reklam lövhələri rəngarəng çalarla parıldasa da, Rüstəm kişinin QASİDİ  demək olarsa tarixin zülmətinə qərq olmuşdu. Budkanın qapısını bağlayan qıfılı açıb özünü içəri girdi. İşığı sistemini təmin etmək üçün uzun həngamə etməli

olduğundan, başının üstündəki rubilniki keçirmədən, yandıranının fənəri ilə srağa gündən yığıb "müştəri" üçün bir kənarda saxladığı qəzetləri və xəbərlərin həftəlik icmalından ibarət lent yazılı kassetləri "müştəri"-yə ötürdü. Müştəri yazılmamış etiket qaydalarına riayyət edib, çağırılmadığına görə, özünü içəri dürtməyib, çöldə durub, dombalmış gözlərlə içəriyə tamaşa etdi.

- Bu da sənin qəzetlərin, bu da kassetlərin. Başqa nə qulluğun var, əllimdən gələni etməyə hazır...Siqaret, sərin su...sözün düzü deyə bilərsən ki, bir halda ki, işıq keçir sular necə sərin qalır, amma sənə deyim ki, soyuducunu gecə keçirsəm də, səhərə kimi sərin saxlayır içindəkiləri,...həm də əsas satılan yarım litrlik qazlı suları, sokları işdən çıxana yaxın buzxanaya yığıram...Belə ürəyin nəsə başqa istəyir.
- Yox..Allah razı olsun, mən elə mənə çatası şeyləri alıb gedim.- deyə qəribə görünən hərəkət edib, Rüstəm kişinin əllərində tutduqlarını səbirsizcəsinə (az qala) qapıb, ciblərinə göz gəzdirdi.
- Tələsdim deyəsən...Pullar sol cibimdədir zəhmət olmasa götürün.

Rüstəm kişinin üzü turşudu.

- Sən məni yəni o dərəcədə yaramaz sayırsan balam? Mənə də Rüstəm kişi deyərlər, mən sözümü dedim, deməli sözü gərək ölsəm də tutam. Mən sənə borcluyam. Bunu yaddan çıxartma.
- Minnətdaram. Sağ olun – deyə burulub getmək istədikdə qəfildən Rüstəm kişi müraciət formasını dəyişib.
- Oğlum sən mənə telefonunu de, mən sənə zəng vurum nömrəm düşsün ora. Birdən nəsə lazım olsa, yerin dibinə də girsəm sənin dərdinə dəva tapım.

“Müştəri” pişik tək iri gözləri ilə Rüstəm kişini xeyli süzdü. Artıq gözləri də hərəkət etmirdi, tormozlanma getmiş kimi. Rüstəm kişi güman etdi ki, bu dəqiqə bu dəlisov gəncin tutmacası tutub ağzından çıxanı əndərəcək ortaya. Halbuki gözləntilərin tam əksi oldu. “Müştəri” ayaqlarının arası sürtüldüyündən dərisi yaman qıcıqlanmışdı. Sürtünmə baş verməsin deyə kənardan gülünc görünən duruşda durmuşdu. Ayaqları şpaqat açmağa hazırlaşan kikboksçu tək yarımaralı idi.

- Hmm... Yaxşı ta neylək...365-75-35... sıfır əlli ilə - deyə sağollaşıb budkadan uzaqlaşdı.

Təqribən on metr aralanmışdı ki, Rüstəm kişinin yenidən səsini eşitdi.

Bəs nömrənə adını da yazmalıyam. Adın nədi oğlum?

- Adım.?..Mənim adım.?...-bir qədər durnuxdu- mənim adım Murad.

## V FƏSİL
## ÖYRƏNCİ

**İmranın gündəliyindən:**

**XX gün XX ay XXXX il**

**Çərşənbə:**

Bir vaxt Fales demişdi, ***“ Üç şeyə görə taleyimə minnətdaram, birincisi: heyvan deyil insan olduğuma görə, ikincisi qadın deyil kişi olduğuma görə, üçüncüsü isə barbar deyil, ellin olduğuma görə”***. Çoxları iddia edir ki, dəvə dövrlərindən qalan presedentləri, indiki wi-fi erasında tətbiq etmək absurd olar. Ancaq Falesin

bu fikrindən həqiqətən də,- üçüncünü dəyişmək- şərtilə hazırkı gün üçün yararlanmaq olar. Mən taleyimdən razıyam ki, İmranam, Borneo adasının cəngəlliklərində zınqırovlu ilanın ağzına keçmiş dəvədəlləyi deyiləm. Və şükür olsun taleyə ki, mən kişiyəm, əks halda Ayanı bu qədər dəlicəsinə sevə bilməz, qadın gözəlliyini duymaq, sezmək, o zərif, o ənbər qoxulu qadın dərisinə toxunmaq keyfiyyətlərindən məhrum olardım. Ayan... Bircə dəfə bu adın çəkilməsi kifayətdir ki, gözəllik, xoşbəxtlik, şadimanlıq, nikbinliklə bağlı nə qədər fikir, assosasiya var, kompleks assortimentdə qonsun bu dəyişkən beynimə. Canlanım,qoşulum dünyada dolaşan gözə görünməz sevgi küləyinə.

*** *** ***

- Lənətə qalsın, artıq üçüncü fleş-kartdır ki, alıram, üç-dörd ayın içində çezir. Bu ölkədə nə alırsan zibil çıxır, ...Adamı yandıran bilirsən nədir, Əmir? Adamı yandıran odur ki, bizdə kompyuter avadanlıqlarının qiyməti bir çox inkişaf etmiş ölkələrin bazar qiymətlərindən baha olduğu halda, bizə kitay-mitay malları sırıyırlar. Yenə də monopoliya. Qiymətləri süni yolla yüksək saxlayırlar, keyfiyyətli malların, misalçın İndoneziya, Malaziya, Meksika, Silikon Vadisi istehsalı olan çipsetlərin ölkəyə idxalına hər cür yolla mane olurlar.

Nəhəng oxu zalında masa arxasında üz-bə-üz əyləşmiş Əmir və Səlim yaxınlaşan kitabxana işçisini – 62 yaşlı subay, və buna görə də kişi tayfasına qarşı çox aqressiv yüklənmiş Nüşabə xalanı (əslinə qalsa “xanım” çünki “xala” deyəndə başına sanki qaynar su tökürdülər, özündən kiçik

adamlara, sən mənim anam yaşdasan, mən sənin xalan niyə oluram ki, deyə deyinərdi.) görcək, bədənlərindən elektrik cərəyan keçibmiş kimi söhbətlərinə müvəqqəti xitam verməli oldular. Səlim "xanım"ın nəyə görə qeydiyyat apardığı masasında durub onların yanına təşrif buyurduğunu təxmini bildiyindən, qorxa-qorxa ona tərəf üzünü çevirdi.

- Sən adamsan, ya eşşək,...nə qədər demək olar ki, kitabxananın içində danışmaq olmaz. Ə balam, o qədər çayçı var, kafe var...oturub söhbət eləməyə pulsuz yer axtarırsız, balaca yaramazlar – deyə kitabxana prinsiplərinə tam zidd olan həyasız səsi ilə bütün kitabxana oxuyucularının diqqətini kitabdan yayındırdı. – Heç olmasa pıçıltıyla danışın,..-deyə qara dördbucaq formalı eynəyini sağ işarə barmağı ilə arxaya verib, buruldu. Birdən nəisə yaddından çıxıbmış kimi,
- Sarsağlar, birdə səsiniz gəlsə sizi iti qovan kimi qovacam...Toje mne. Kitab oxuyan olublar mənimçin.- dedi və dodaqaltında donquldana-donquldana öz masasına qayıtdı.

Səlim yaman qızarmışdı. Ayrı-ayrı yazı masaları arxasında əyləşmiş qızlar Səlimə baxıb altdan-altdan gülüb, pıçıldaşdılar. Əmir nəzərlərini Səlimə qaytardı.

- Bilirsən bu ifritəyə nə lazımdı...Yaxşıca... güclü, potaş bir kişi. Bircə dəfə kişiylə yaxın təmasda olmağı kifayətdir ki, ifritəliyin, qaşqabaqlılığın daşını atsın. – deyə Səlim hirsini çıxarmağa çalışdı.
- Çətin...Beləsi gərək ən azı bir neçə ay sevgi terapiyası keçsin. Hə sözün yarıda qaldı. Fleş kartına nə olub ki?

Nüşabə xalanın bir daha gəlməməsi üçün az qala pıçıltı ilə hadisəni şərh etdi:

- Əşi nə olacaq ki, DNS-dən almışdım bu zibilə qalmış fleşkanı, 4 qiqabayt iyirmi manata, artıq üçüncü gün istifadə edəndə hiss etdim ki, mənə giydirmə fleşka sırıyıblar, kompyuter gah tanıyır, gah da tanımır. Əvvəl elə bildim, sadəcə USB başlığında boşluq var. Bir neçə ay bir təhər sıxa sıxa, əyə-əyə çalışdırdım. Son günlər ümumiyyətlə  işləmirdi. USB porta ən azı yüzdəfə salıb çıxardırdım, yalnız bir dəfə işığı yanmağa başlayırdı. Dünən möhürünü aralayıb çip hissəni oradan çıxardım. Sən demə, porta girən hissədə giriş tranzistorlarının ön yarısı tez-tez salıb çıxarmaqdan yeyilib. Bilirsən də elektriki yaxşı keçirmək üçün qızıl suyundan geniş istifadə olunur çipsetlərdə. Neyləyim, neyləməyim, zəng vurdum televizor ustası dayıma,...dedim, dayı mən ölüm dərdimə əlac, bu vaxta qədər dənə-dənə yığdığım bütün maraqlı fayllar, şəkillər, mahnılar hamsı bu fleşkadadır. Heç olmasa bir dəfə işləsin ki, içində olan məlumatları kompyuterin yaddaşına köçürə biləm.  Dedi problem yoxdu. Sadəcə olaraq, həmin yeyilmiş hissəni karandaşla çoxlu-çoxlu sürt. (tapşırdı ki, karandaşla yazandan sonra fikir ver ki, karandaş bir tranzistordan digərinə keçməsin) Sağ olsun. Dediyi kimi etdim..
- Bir şey alındı.
- Düzdür əvvəl heç nə olmadı. Az qala hirsimdən fleşkanı sındıracaqdım. İşim çıxdı müvəqqəti kompyuterin arxasından qalxmalı oldum. Fleşka USB-yə qoşulu qalmışdı. Qayıdanda nə görsəm yaxşıdı. Fleşkartın işığı yanır. Tez bazar içindəkiləri köçürdüm yaddaşa sonra da fleşkanı sındırdım ki, bir də bu zibil

mənə əziyyət verməsin. Hmm... Bir də qələt eliyərəm, fleşkanı yoxlamamış almaram.

Əmir taxta stuldan oturmaqdan yaman yorulmuşdu. Çanağının göynəməməsi üçün tez-tez stulunda narahat hərəkətlər, arxaya-önə, sağa-sola vargəl edirdi. Arabir komplekssiz şəkildə ayağa qalxıb, arxasında "dağların arasına" keçmiş tumanını düzəldib yenidən narahat yerinə əyləşirdi.

- İncimə ancaq səndə bir az loxluq da var. Nə olur elə, həmişə səndə mallar geydirmə çıxır. Mən özüm onlardan bir kompyuter, bir dənə də leptop almışam. Maşallah saat kimi də işləyir.
- Söhbət ondan getmir eh...

Əmir Səlimin sözünü sifət turşudaraq kəsdi:

- Saxla..Bezdim daha. Bu gün qəşəng-məşəng qız gəlmədi. Mən gedirəm, sənsə qal, (indi adını deyəcəm kitabın) bir kitab oxu.
- Hansı kitabı?
- Əla kitabdı. Sənə çox köməyi dəyə bilər.
- Adı nədi o kitabın, sən özün oxumusan? – deyə şübhəli baxışları ilə soruşdu
- Adı belədir: "***QAZLAR üçün QAZLANMAMA DƏRSLİYİ***". Di mən getdim. Sənsə oxu elmlən. Alvideççi.

Əmirin xalerik temperamentindən doğan belə acılı zarafatlarına alışmışdı. Gözlərilə Əmirin oxu zalınından ötürüb, köks ötürdü. Təqribən beş-altı metr öndə divara söykənmiş yazı masası arxasında əyləşmiş qızları "ilkin müayinədən" keçirdi. Özlərində kişi nəzəri hiss edən kimi diqqətini cəlb etmək üçün saçlarını oynatmağa başladılar. Sağda əyləşmiş qızın qıvrım, çiyinlərinə dək uzanmış qap-qara saçları vardı, üz-gözündə heç bir

çatışmamazlıq olmasa da, həddi-buluğa çatmağ astanasında olan qanı qaynayan bu qızda cəzb edici elə bir şey yox idi. Üzünə kosmetikanı o qədər yağdırmışdı ki, elə bil kitabxanaya deyil toyxanaya gəlmişdi. Bəlkə də təbii gözəlliyi ilə həmin məkanda olsaydı, Səlimə maraqlı gələrdi. Ancaq belə görkəmdə bu arıq, guya qızlarla söhbət əsnasından tez-tez əl hərəkətləri ilə yarı açıq sinəsini, hərdəbir bilərəkdən qabağı əyilərək öz zinətlərini Səlimə göstərməyə çalışan bu şıltaq qız, Səlimin qəlbindən heç bir üşütmə keçirmirdi. Yəqin qız da özü onda elə bir çəkici auranın və görünüşün olmadığını bildiyindən, ən axırıncı yola əl ataraq, kişilərdə heyvani istəkləri yarada biləcək vasitələrdən istifadə etmiş - yəni dam-dar vilvet şalvar, sinəsinin pırtlamasına səbəb olan yaxası açıq, buta rəsmləri, ilan qurbağa yazıları ilə bəzədilmiş sarı köynək geymişdi. Ortada əyləşmiş qız isə bir qədər dolu qız idi, aralarında ən yaşlısı olduğu görsənirdi.Saçları qəhvəyi rəngdə olub, birinci qız kimi tam qıvrım deyil, dalğavari şəkildə burulurdu. Gözəl köpmüş dodaqları, ideal simmetriyalı burnu, dolu sifət üçün bir qədər qıyıq gözləri vardı. Uzaqdan əsl özbək qızlarına oxşayırdı. Halbuki özünü öncəki qızla müqayisədə olduqca təmkinli və abırlı aparmasına rəğmən, indidən qaşlarının alınmış olması, Səlimin fikrində qızın bütün üstünlüklərini alt-üst edirdi. Səlimin əsli Bakılı olduğundan abır-həya məsələsinə olduqca həssas idi. Demək olar ki hər gün anasının *"Hindi gəl tap görüm, filankes qızdı yoxsa arvad...hələ ki, son zəng oldı, alırlar qaşlarını quşbalalar kimi"tipli* sosial zəminli gileylərilə qarşılaşırdı.

Üçüncü qız - əslinə qalanda qızcığaz (yaşına görə çox cılız bir şey idi)- Səlimə çox tanış gəlirdi. Gözəgörünməz baş sancaqları ilə saçlarını yığmış bu nərmənazik qıza ən çoxu on beş yaş vermək olardı. Yanaqları tez-tez

qızarır, Səlimi ona baxdığını görcək özünü itirib gərgin vəziyyət alır, dodaqlarını sıxırdı. Rəfiqələrindən fərqli olaraq qulaqlarına qızılı halqa sırqa taxmışdı. Hər birinin qabağında qalın cildli köhnə kitablar olsa da, dodaqaltı pıçıldaşmaya qurşanmışdılar. Lap dostu Əmir kimi deyəsən bunların da kitabxanaya gəlməkdə yalnız bir məqsədi var, sevgi tələbatlarını ödəmək üçün və ya yeni sevgi həyəcanı yaşamaq üçün potensial şikar tapmaq.

Səlim onu da bilirdi ki, bura gələn belə qızlar çox vaxt ev-daxili məhdudedici qanunlar ucbatında yeganə əlac kimi məhz kitabxanaya (kitab oxumaq adıyla) üz tuturdular.

Səlim dostlarına özünü oxumayan, kitaba nifrət edən bir avara kimi göstərsə də, bir hadisə onu gizli kitab oxucusuna çevirmişdi. Belə ki, yayda Şamaxıya bir neçə həftəlik ailəlikcə istirahətə getmişdilər. Tərslikdən elə gəlişlərinin ilk günlərindəcə Səlim bərk azarladı. Bir də gördülər ki, uşaq, yeməyini yeyib masa arxasından qalxanda müvazinətini itirib yerə sərildi. Bundan sonra ona nəoldusa düz bir ay ayaq üstə dura bilmədi. Boyundan beynə gedən damarlara möhkəm soyuq dəydiyindən , motor və mərkəzləşmə funksiyalarını yerinə yetirən hüceyrələrdə pozuntular yaranmış, nəticədə ayaq üstə duranda başı gicəllənirdi. Kəndin həkimi nə televizora baxmağa, nə də ki, çölə çıxmağa icazə vermirdi. Kənddəki dost-aşnası və qardaşı artıq onun sağalmağını gözləməkdən bezib, özləri meşəyə, çay başına, dağ-təpə səyahətlərinə çıxırdılar. Beləcə Səlim darıxmaqdan param-parça olmamaq üçün ilk dəfə olaraq kitaba üz tutmalı oldu. Əlinə keçən kitab elmi-fantastik və mistik üslubda yazan məşhur müasir ABŞ yazarı Robert Şeklinin "Status Sivilizasiyası"adlı povesti idi. Kitab o qədər çəkici oldu ki, bir günə özü də bilmədən 120 səhifəlik povesti

bitirdi. Hmm...Özü özünə məəttəl qalmışdı. Bir vaxtlar avtobusda kitab oxuyan yaşıdlarını lağa qoyar, dostları ilə oxuyan uşaqları rişxənd edərdi. İndi isə kitabın əsl təamını duymuşdu. Yenə kitab oxumaq istəyirdi. Beləcə Səlimin oxuculuq həvəsi surətlə artmağa başladı. "Səlim, sən çox irəliləmisən...Səlim yayda kurslara getməmisən ki?...Səlim, sən mənim canım, bu nə qurmadır mənim başıma gətirirsiz? –deyə müəllimləri də Səlimin üçyüzaltmış dərəcəli dəyişikliyinə təəccüb edirdilər.

İmran kitabxanaya həmişəkindən bir neçə saat tez gəlmişdi. Əynində qara cemper, mavi sürtülmüş cins vardı, ayaqlarına da bir cüt ağ Umbro krosovka keçirmişdi. Başına vərdiş etdiyi qaydada qara yun idman stilli papaq taxmışdı. Kitabxananın aynalı qapısını açıb, içəri girən kimi ayaqlarını qapının önündəki nimdaş döşəmə əskisinə sildi. Mp3 pleyerin qulaqcıqlarını çıxarıb kitabxana işçisinin qeydiyyat masasına yaxınlaşdı. Əlində gətirdiyi bir neçə tom solğun kitabları gənc kitabxana işçisinin önünə düzdü (İmrandan xoşu gəldiyindən müvəqqəti Nüşabə xalanı əvəz etmişdi). Sonra ətrafa ümumi nəzər salıb, nəzərlərini yenidən bəmbəyaz və ölümcül solğun üzlü, ancaq bununla belə xoşagələn, kitabxana işçisinə qaytardı. Qız utandığından tez gözlərini qaçırıb, nəzərlərini süni şəkildə kitablara yönəltdi. Əslində "ev sahibi" olaraq kitabxana işçisi söhbətə təşəbbüs etməli idi - əlbəttə ki, sırf iş prosesilə bağlı söhbətə. Qız şar kimi şişmişdi və ağzından bir kəlmə olsun çıxarmaq istəmirdi. İmran qızı bu vəziyyətdən çıxartmaq üçün özü söhbətə başlamalı oldu.

- Deməli...bu Klifford Saymak "Enmə stansiyası", bu Rey Bredburinin Farinqeyti, bu Henri Haqqardın "Montesumanın qızı" kitabı, bu da kı, Oskar Uayldın uşaq nağılları və hekayələr toplusu. Topyekun dörd kitab götürmüşdüm, keçən həftə.

Klifford Saymakın adını eşidcək, Səlimin nəzərləri kitabdan ayrıldı.

Qız yenə də bir şey deyə bilmədi. Olduqca ləng hərəkətlə gözlərini qaldırmadan kitablardan yapışdı. Məcburiyyət qarşısında İmranın gözlərinə baxıb.

- Bbb... Yeni bir şey aparacaqsız.-deyə titrək səslə dilləndi.
- Yeni kitab deyəndə ki, mənim sevdiyim elmi-fantastika rəfinizdə çox az kitab var. Bilmirəm oxuyan yoxdu yeni kitab gəlmir, yoxsa kitabların çoxu əllərdədir. Əksəriyyətini oxumuşam. Oxumadıqlarım da yalnız ət tökən rus fantastlarıdır. Efremov, Aleksey Tolstoy və sayırə və ilaxır.
- İstəyirsiz yenə baxın, məncə əldə olan bir neçə kitabı qaytarıblar.

İmranı kölgədə sevsə də, bunu heç kimə üzə vurmurdu. İmranın tez-tez gəlməyi üçün özü gedib atasının, əmisinin, Polşaya köçmüş dayısı oğlanlarının evindən yeni kitablarla təchiz edirdi bu rəfi. Nüşabə xanım hər dəfə, "nə yaxşı bizə təzə kitablar bağışlayırlar, kim gətirir görəsən, eyni adamlardır?" soruşanda, kitabları məhz İmran üçün xəlvətcə özü gətirib, inventara saldığını gizləyirdi.

İmran qeydiyyat masasının yaxınlığında olan laklanmış beş lövhəli kitab rəfinə yaxınlaşdı. Beş lövhədən yalnız biri elmi-fantastikaya həsr olunmuşdu ki, orada da nadir halda ağzına kimi dolu kitab olurdu. İmran fantastika rəfindəki canlanmanı görüb, xeyli təəccübləndi.

- Oho... Robert Aspirin "Zaman saxtakarları" – deyə gözüylə tuşladığı kitabın yan qabığından dartıb, çıxardı. Kitabın üz qabığında gözəl komputer effektli illustrasiya- gələcək zamanın geyimlərindən olacağı prozada güman edilən dar kombinzonlu bir kişinin tam fərqli məkan və zamanda roma əsgərlərindən qaçdığı rəsmi- həkk

olunmuşdu. – Hmm..- Kitabın son səhifəsini açdı ki, tiraj və buraxılış ili haqqında məlumatlarla tanış olsun. Birinci dəfə idi ki, bu kitabxanada SSRİ süqutundan sonra buraxılmış qalın cildli üstəlik üz qabığında CAD dizaynlı illustrasiya olan kitab görürdü.

Qız gəlib İmranın yaxınlığında durmuşdu. Qəlbində İmranın yeni kitabdan xoşlandığına çox sevinirdi. İmran utancaq qızın yanında durduğunu görüb, gülümsədi.

- Nə yaxşı olub belə bir kitab tapmışam. Buraxılış ili 1998. Elə bil lap dünən alınmış kitabdır. Cağ-ba-cağdır. Görünür içi çox dəyərli və maraqlıdır ki, bütün bu vaxta qədər olmuş oxucuları çox güman bir –iki günə bitirib, özlərilə ora-bura aparmayıblar ki, bir səhifəsi də əzilməyib, üz qabığının rəngi solmayıb. Həm də axır ki, sizin kitabxanada içi tozsuz kitab tapdım. O biri kitabları oxuyana kimi ağıllı başlı əziyyət çəkdim. Mənim axı kitab tozuna qarşı allergiyam var.

Səlim özündən bir neçə yaş böyük görünən bu oğlanın çənə olduğunu görüb, yenidən oxuduğu kitaba qayıtdı. İmran sanki onun ürəyini oxuyubmuş kimi- deyəsən çox danışdım –dedi və kitabı götürüb qeydiyyat masasına tərəf addımladı. Qız utana-utana da olsa rəfdən uzaqlaşan İmrana çağırdı.

- Siz...Siz axı o biri yeni kitablara baxmadız.

İmran yerində donub qaldı. İmranın fikri kitabda qalmasaydı, qızın özünün necə yandırdığını tuta bilərdi.

- Məgər yenə kitab var...? Baxaq görək.- yenidən rəfin önündə durdu,
- Ağəz Təranə, harda itib batdın. Ged Samirəyə köməy elə, bir saata fondun keçirdiyi təqdimat olacaq sənsə orada laqqırtı vurursun.-

deyə qeydiyyat masasındakı yerinə qayıtmış Nüşabə xanım yarım il stajı olan bu praktikant qıza acıqlandı.

Təranə bir az da əsəbdən qızarıb, heç bir söz demədən Rus dilli və Azərbaycan dilli şöbələri ayıran qapıya tərəf istiqamət götürdü. Heç bir söz deyə bilmədən iti addımlarla otağı tərk etdi.

İmrana bu dəfə dörd oxumadığı kitab götürdü. Bayaqdan ağlına gəlməmişdi ki, kitabların ilk səhifəsinə baxsın. Həmin səhifədə kitabın inventarını, qeydiyyat tarixini, (hər oxucuya) verilmə tarixini göstərən, yapışdırılmış və ya xüsusi zərf şəkilli formaya salınmış mini-reyestr – çox vaxt beşin ona kağız parçası olurdu. Kitabların hamısında itsifət Nüşabə xanım müvafiq qeydiyyatlarını aparıb bir-bir ona təhvil verdickə, kitabların reyestrlərinə nəzər salıb yaman təəcüblənirdi. Verilmə tarixlərinin qaib olmasından məlum olurdu ki, İmran bu kitabların – hər halda – kitabxanada ilk oxucusu idi. Belə xoşməramlı iş görüb, öz dəyərli kitablarını kitabxanaya bağışlamış adamı tutub öpmək istəyirdi.

- Bu da axırıncı kitab... Harri Harrison “Dəmir Siçovlunun intiqamı”, reyestr nömrəsi 1830...buyur.

Səlim yeni kitabların adlarını eşitdikcə bütün həqiqətlər ona yavaş-yavaş vaqe olurdu. Özü biləni fantastika rəfini başdan ayağa oxumuşdu. Əldə də heç bir kitab yox idi. Axırıncı dəfə srağagün bu şöbəyə nəzər salan zaman heç bir kitab aşkar etməmişdi. İndi isə ən azı iyirmi təzə kitab peyda olmuşdu. Bir qədər acığı tutsa belə, gözünün qabağında formalaşan məhəbbət hadisəsində yalnız müşahidəçi kimi qalmaq fikri yox idi. Təbiətcə aktiv, ünsiyyətcil və kompleksiz olan Səlim kitabı qoltuğuna vurub, kitabxananı tərk edən İmranın arxasınca getdi.

Kitabxananın qapısından çölə çıxan kimi havadakı nəmişliyi və sərinliyi hiss etdi. Saat üçün yarısı olsa da, hava qara buludların fonunda çox tutqun idi. Olduqca narın ancaq  iti surətli yağış cızzıldayırdı. Kitabxanını piləkanlarını düşüb Everest restoranında qurtaran səkiyə çıxdı. Səkiyə paralel tək istiqamətli maşın yolu keçirdi. Maşın yolunun o biri tərəfində isə xüsusi Gənclər üçün iri əyləncə kompleksi yerləşirdi. Toqquşan maşın səsləri ilə uşaq avtodromu, DOLBY DİJİTALdağıdıcı səsli 3D oyun aparatları, bağça uşaqlarının qaçdı-tutdu oynadığı gözəl yaşıl qazonlu, fəvvarəli park gözəl bir harmoniya təşkil edirdi. Kurtkasının yaxasını qaldırıb, başını qabağa əydi və İmranı yeddi metr öndə görüb ləng addımlarla getdiyini görüb, onun təqibinə düşdü.  İri və çevik addımlar atdı ki, ona çata bilsin. Əks halda yolun sonluğunda Everestdən burulub hansı istiqamətə getdiyini görə bilməyəcəkdi. Səlim yaxınlaşdıqca İmranın addımlarında bir qədər qəribəlik hiss etdi. Sanki bir qədər əvvəl içəridə çənə döyən sərbəst tərzli bu oğlandan əsər əlamət qalmamışdı. Qulaqcıqları taxılı deyildi. Cemperinin içində kapuşon görünsə də belə çiskində başına keçirib beynini potensial miningitdən qorumurdu. Fırç! Fikiri İmranda qaldığından iri palçıq dərəsinin içinə girdi. Sol krasovkası yam-yaş oldu. Lənət olsun!-deyib öz istədiyində israrlı şəkildə İmrana yaxınlaşmaq üçün daha da surətli addımladı. İmranın baxışları yalnız yolunun önünə idi. Heç bir dəfə də oyan-buyana, yanından  keçmiş  dar geyimli xalaya belə baxmadı. Başına gözə görünməz metal çərçivə keçirsəydilər, bu qədər təəcüblü olmazdı. Səlimə elə gəldi ki, İmran addımlarını yavaşlayırdı.  Yanından qulaqdələn siqnal səsi və ağır motor dızıltısı ilə şütüyüb keçən su maşını Səlimi yaman diksindirdi. Bir anlıq fikri yayındı. Bir də gördü ki, İmran artıq onun yaxasından yapışıb və

kitabxana binasıyla paralel gedən suvaqlı divara dirəyib. İmran elə hədələyici sifət almışdı ki, reflektiv şəkildə qorxudan Səlimin ödü işə düşdü.

- Məni niyə güdürsən? – göysünü bir az da tarım sıxıb polis nəfəri tək soruşdu.
- Qaqaş sən nə danışırsan, səni niyə güdüm axı...
- Hələ kitabxanada tutdum  qəribə baxışlarını.
- Yox eh Qaqaş,...məsələ başqa şeydədi. İncimə. Bu qədər gücün var, ancaq ovuc boyda beynin yoxdur.- Səlim özü də böyük səhv buraxdığını hiss edib udqundu. İlk zərbəni ertələmək üçün sözlərini yumşaltmalı oldu.
- Demək istədiyim odur ki, yəni heç ağlın kəsmir ki, necə oldu 3-4 günə həmin fantastika rəfi ağzına kimi yeni kitablarla doldu. Sonuncu dəfə Bazar ertəsi gələndə həmin rəf toz içində idi, qaldı ki, yeni seriya kitab. Bir də ki, onu bil ki, əldə heç kimdə bu şöbədən kitab yoxdur. Nüşabə xanımdan öyrənə bilmişdim ki, özümdən başqa ancaq bir nəfər var mənimlə bu ədəbiyyat janrında həmmaraq olan. Oda kı sənsən. İndi başa düşdün nə demək istədiyimi...Kitabxanaçı qız səni dəlicəsinə sevir. Yeni kitabların hamısını özü gətirib ki, kitabxanaya tez-tez gələsən. Bu su kimi aydındır.

İmran oğlanın yaxasını bir qədər boşaltdı.

- Elə bunu deməy üçün düşmüşdün dalımca?
- Hə...Bir də ki, mənə maraqlı idi, niyə həmişə elmi-fantastik romanlar oxuyursan?

İmran təqibinə düşmüş yeniyetmə cini buraxan kimi, tez-bazar əyin başını qaydaya saldı və sanki bir neçə saniyə öncə heç bir şey olmayıbmış kimi dişlərini ağartdı. İmran üzrxahlıq etdi.

- Adım İmrandı, photoşop dizayneriyəm, işdən sonra axmağ verlişlərlə dolu televizor qutusunu açmaqdansa, mütaliə edirəm, əsasən, elmi-fantastika oxuyuram, bu janr məni heç vaxt yormur. Səni necə adlandırmaq olar?

Səlim bir qədər də sərbəst görkəm alaraq əllərini boz rəngli cinsinin ön ciblərinə keçirdi və başıyla ədabaz jestlər edib cavab verdi.

- Mən...Əsl adım Səlimdi –deyə özü də bilməyərəkdən İmranın beynində növbəti sualı formalaşdırdı.
- Əsl adın – məgər başqa adın da var?
- Başqa ad deyəndəki, məktəbdə məni "İnqoli" adıyla tanıyırlar.
- Nə İn-qolya....ha-ha-ha, bu sarsağ adı sənə kim verib soruşmuram, bu "ləqəbin" mənası nədir? Latın mənşəli ləqəbdir.
- Uzun məsələdir,...özüm onuncu sinifdə oxuyuram. Səni amma futbol oynuyan zad heç vaxt görməmişəm.
- Əlbəttə görməzsən, ulan (İmran bu türk jarqonunu işlətməyi çox sevərdi), mənim iyirmi altı yaşım var. Mən...

İmranın üz cizgilərinin qəfildən dəyişdiyini Səlim aydın şəkildə gördü. İmranın gözünə kompleks tərəfdən gələn yaşlı, dolu və alçaq boylu bir kişi sataşmışdı. Kişinin onu görüb tanımaması üçün mümkün qədər tez çöndü. Əlini səlimin çiyninə qoyaraq onu da üzüyola çevirib, dostcasına yavaş addımlarla irəlilədilər. Hərəkətdə ola-ola, arxaya çönmədən, Səlimlə sağollaşdı.

- Oldu qardaş, İnşallah ən tezi gələn həftə kitabxanada görüşərik, istəsən nömrəni mənə verərsən,...deyirsən o qız məni sevir, pfuu...deyəsən kitabxananı dəyişəsi olacam. – elə bil avtocavablayıcı aparat kimi özü özüylə danışıb, cavab tələb etməyən suallar yağdırırdı.
- Telefon nömrəm, 055-552-22- deyə nömrəsini tam deməmişdi ki, İmran sağollaşıb, Everestin yanından çevik şəkildi buruldu və gözdən itdi.

***   ***   ***

Ayanın ağlına belə gəlməzdi ki, 220 nömrəli marşrut iyirmi dəqiqə gecikə bilər. Ən azı beş il idi ki, bu böyük məsafəli marşrutu olan avtobusdan istifadə edirdi və belə halla ilk dəfə rastlaşırdı. Normal intervalı 4 dəqiqə olan bu marşrutun gecikməsi Nilufər şadlıq sarayının qarşısındakı xudmanı dayanacaqda ağzına kimi dolu insan kütləsinə bais olmuşdu ( üstəlik iri damlalı yaz yağmuru vedrədən töküldüyündən, çətirsiz qadınların çoxu bu xudmani dayanacağın içində ağız-ağıza durub yağışdan qorunurdular. Ayan hər zamankı kimi çox tədbirli olaraq özü ilə balaca çətirini götürmüşdü. Səbirsiz sərnişinlərin bir çoxu içi demək olar ki boş olan 1 nömrəli marşrutun gəldiyini görüb bir-birinin üstünə dırmaşa-dırmaşa, suda boğulmamaq üçün balasının başına dırmaşan meymunlar tək avtobusun qapılarında vargəl edirdilər. Çox güman Qara Qarayevə gedib oradan 131 və ya digər alternativ marşrutlara minəcəklər- deyə qarayağız, al dodaqlı, qıvrım saçlı, yunan əsilli gözəllərə bənzəyən Ayan özlüyündə təhlil etdi.

Dayanacağın arxasında market, ayaqqabı dükanı, kiçik un məmulatları mağazası, reklam lövhəsinin rəngi qaçmış qadın gözəllik salonu və peyk antenlərinin topdan və pərakəndə satışı müəssisəsi və digər iaşə obyektləri bir zəncirdə, kəsmə yola kimi küçə boyu uzanırdı. Günorta saatlarında bu obyektlər çox zəif işlədiyindən, satıcıların çoxu şüşə pəncərənin arxasında durub ötən xarici marka maşınları və ya gözəl qızları seyr etməyə vərdiş etmişdilər. Qızların isə onlara bircə dəfə baxıb gülümsəməsi kifayət edirdi ki, işlərini atıb həmin şortum qızların nömrələrini almağa cumuşsunlar. Yağışlı hava isə Əhmədlinin bəlkə ən az gəlirli bazar sektorunda yerləşən bu şəbəkə dükan-obyektlərin olmazın müştərilərini də ixtisara salmışdı.

Dərin gölməçənin içindən bilərəkdən heyvan kimi sürən bir cavan avtoş dayanacaqdan bir neçə metr öndə dayanmış adamları o cümlədən Ayanı başdan ayağa yam-yaş etdi. Sarı şalvarında tədricən iri palçıq ləkələri peyda olmağa başlayan iri gövdəli bir cavan oğlan yerdən iri daş götürüb, ".....balası", "anası....."sözləri ilə vızzılladsa da, artıq Opel daş atəşindən təhlükəsiz məsafəyə sürmüşdü. Bir yığın söyüş, qarğışın müşayəti ilə mümkün qədər tez şəkildə qaza verib, çarpaz yolda ətrafa baxmadan sağa buruldu.

Elə bil 220 saylı marşrutun lap yerində gəldi. Üstünün palçığını silən Ayan avtobusu görcək maşının ön qapısına doğru qaçdı. Qara yubkası uzun olduğudan pilləkanları bir qədər hündürdə yerləşən arxa qapıdan minə bilmirdi. Özündən qabaq duran bir yaşlı xanımın yuxarı qalxmasına kömək edib, özü də avtobusa minmək istəyirdi ki, bir kəskin qoxu verən, havanın isti olmasına rəğmən qalın qəhvəyi jaket geymiş bir qadının

qabağını kəsdiyini gördü. Sol əlində siqaret tüstüləyirdi, sol əlini isə Ayana tərəf uzatmışdı. Görkəmindən əqli şikəst adama oxşayırdı.

- Bağışlayın sizdə iyirmi qəpik olmaz? – deyə olduqca kubar şəkildə müraciət etməsi Ayanı lap çaşdırdı.

Özü də bilmədən cibində olan axırıncı pulunu – yol pulusunu həmin xəstə qadına uzatdı.

- Çox sağolunuz. –deyə yenidən nəzakətli tonda danışdı. – Bağışlıyın ki, narahat etdim.

Ayan hələ də cibində bir qəpik pul qalmadığı fikrinə varmamışdı. Bununla belə artıq avtobusa minib ön oturacaqların birində özünə yer də almışdı. Avtobus şoferi Günəşli yolunda baş vermiş qəzaya görə gecikdiyindən gecikmiş olduğu marşrutlarını ona rəhbərlik tərəfindən verilmiş vaxt qrafiki ilə sinxronlaşdırmaq üçün dayanacaqda bir neçə dəqiqə gözləməli oldu. Ayan həvəssiz şəkildə avtobusun pəncərəsindən şır-ha-şır yağışda sanki bilərəkdən çimmək istəyirmiş kimi səkinin üstündə uzanmış qara pişiyi seyr edirdi. Özü bildiyi qədəri, pişiklər sudan qorxardılar. Yəqin bu dünyanın ən axmaq pişiyi idi ki, tükləri yamyaş olsa belə, sfinks şəklində uzanıb ötüb keçən maşınları seyr edirdi.

- Lap vaxtında çatdım,...yoxsa cibində bir qəpik pulsuz yola düşmüşdün.- səsindən tanıdı ki, başının üstündə qəfildən peyda olan keçmiş iş yoldaşı İmrandır, ona baxıb gülümsədi. İmran avtobusun ayaq üstə duran sərnişinləri üçün nəzərdə tutulmuş dəmir tutqacdan sol əli ilə yapışıb, sağ əlini Ayanın önündəki oturacağın kandarından tutdu.

- Aaa...doğrudan ah, ...bu xəstə arvad elə bil məni gipnoz etdi. Özüm də bilmədən yol pulumu ona ötürdüm. – deyə bir neçə dəqiqə öncəki qeyri-adi hərəkətinə təəcübünü gizlətmədi.

Avtobus sürücüsü son sərnişinini də götürüb, qapıları bağladı. Motoru işə salıb mümkün qədər operativ şəkildə yarmarkanın yolu ilə 8-ci kilometr istiqamətində sürdü.

Sabunçu rayon İcra Hakimiyyətinin binasının yanında, Heydər Parkının önündəki dayanacaqda düşdülər. Ayan ağır təbiətli qız olduğundan özü İmranın qoluna girməyə heç vaxt birinci təşəbbüs etməzdi. Ona görə də İmran Ayana demədən əlini özbaşına şəkildə dartıb öz cibinə salmağa öyrəşmişdi. Halbuki beş-altı saniyə kifayət edirdi ki, piyadə ikən xırda bir əl tutmaq məsələsi üstündə böyük bir sözləşmə düşsün, Ayangilin blokuna kimi bütün yolu bir-birindən küsülü şəkildə heç bircə kəlmə də mübadilə etmədən qət etsinlər.

- İmran, danışmıram sən ağını eliyirsən,...dost, iş yoldaşı olmağımız sənə ixtiyar vermir ki, mənim əlimdən tutasan- deyə bu dəfə də var gücü ilə zərif və yumşaq əlini İmranın ovucundan qopardı.
- Sənin qurbanın olum, bəs məndə ona görə deyirəm də. Qoy bizimkiləri göndərim. Sonra məni kimsə qabaqlayar... Axı mən səni sevirəm. Sənsiz yaşaya bilmərəm.- İmran etiraz etdi. Bayaq Ayanı tutduğu əlini məyus-məyus cibinə salıb az qala Ayan söykənəsi, yanında gedə-gedə söhbətinə davam etdi.
- Nədən qorxursan axı ay axmaq, bu yaşıma kimi məni heç kimə verməyiblər, bundan sonra da verməzlər. Bir də ki, qorxursan məni birdən qaçırarlar?!

- Hə...Hər şey ola bilər. Belə yaqut gözləri görüb necə dəli olmayasan, necə başını itirib ən ağılasığmaz əməllərə əl atmayasan axı. Bir də ki, belə gözəlliklə səni lap yadplanetlilərə də qısqanıram, bir də gördün səni balacaboy yaramaz Marslılar qaçırdı.

Ayan gülmək əvəzinə qaşlarını çatıb, İmrana tərs-tərs baxdı.

- İmran, mən sənə min dəfə demişəm axı. Sən məni düzgün başa düşməmisən, mən səni sevmirəm. Sadəcə dost kimi səni yaxın bilirəm. Sən mənim iş yoldaşım olmasaydın, bu yalançı təxəyyüllərin peyda olmazdı mənimlə bağlı. Mənə çatmır ki, niyə axı məni həmişə səhv başa düşürlər. Mən hər zaman istəyirdim ki, yaxşı bir dostum, sirdaşım olsun. Mənə elə gəlirdi ki, sən həmin adamsan. Ancaq keçən həftə məlum oldu ki, sən dikbaş, öz tərəfindən heç də mənə qarşı bu fikirdə deyilsən...

Sağda dükan, ofis zəncirindəki obyektlərin birinin dəmir jalyuz qapısının şaqqıltı ilə bağlanması bir anlıq hər ikisinin fikrini yayındırdı. Mexaniki şəkildə səs gələn tərəfə baxdıqda gördülər ki, bu ayaqqabı təmiri yeri idi və (çox güman ki) yiyəsi çəkməçi çarxlarının və diyircəklərinin sürtküsü quruduğundan, jalyuz qapını tam döşəməyə kimi çatdırmaq istəyirdi ki, sonra altdan açarla kilidləyə bilsin. Növbəti ticarət obyektində isə İmranın diqqətini ofisin şüşə pəncərəsinə vurulmuş kağız reklamın yazısı cəlb etdi. A4 albom formatında skoçla yapışdırılmış bu ağ qara elanda "Skaner" əvəzinə qıjıcasına "skayner" yazılmışdı. İmran ingilis dilini səlis bildiyindən başa düşə bilmirdi ki, skaner sözündəki Y hərfini bu obyekt sahibləri haradan dartıb çıxara biliblər. Özlüyündə gülümsəyib baxışını, yenidən nitqini davam etdirən Ayan qaytardı.

- Səndən xahişim budur ki, bu tərsliyinin daşını atasan. Mən səninlə tam səmimiyəm. Mən səni sevmirəm. Sənə ancaq dost kimi simpatiyam var. Gəl həmişə dost qalaq, bu münasibətlərdən o yana keçməyək.

Çayın məcrasında çıxmaması üçün kandarlarına necə bəndlər düzürlərsə İmran da nəfsinin qışqırtısını boğmaqla məşğul idi. Ancaq nəfisinin "De...De...De.." qışqırtısını qalib gəldiyindən bu vaxta qədər demək istədiyi lakin demədiyi ifadəni işlətdi.

- Yadda saxla, oğlanla qız dost olmur...Heç vaxt ola da bilməz.

Ayan tərs tərs baxıb, bir söz demədən üzünü çevirdi və acıq edibmiş kimi ayaqlarına sürət verərək, İmrandan qabağa düşdü. İmran başa düşdü ki, artıq Ayanın qəlbini yaraladı. Bilirdi ki, Ayan küsəndə, onun xətrinə dəyəndə nə edirsən et, ən azı bir gün səninlə danışmayacaqdı. Ona görə də əlavə bir söz deməyib sadəcə Ayanı yaşadığı doqquz mərtəbəli binanın blokuna kimi ötürdü, sağ ol deyib əvəzini almayıb, suyu qaçmış şəkildə avtobus dayanacağına qayıtdı.

## VI FƏSİL
## ƏVƏZ-ƏVƏZƏ

Şlanqın çıxıntısını baş barmağı ilə sıxmaqla, ağzında kiçicik məsamə saxladı. Əmələ gələn təzyiqdən şlanqadan su daha sürətli, lakin nazik xətlərlə fışqırdı. Hər dəfə barmağını bərk sıxdıqca, həyətin o biri başında yerləşən çərhovuzun su nasosunun daha güclü uğuldadığını eşidirdi. Xar

tut ağacını, xırda üzüm tənəklərini, artıq ilk nübarını vermiş armud ağacını yaxşıca sulamış olsa da, vərdiş etdiyi qaydada süni ot örtüyündən də gözəl görünən yabanı sıx otları da sulamağı sevərdi. Deyilən kimi suyun təzyiqini artırır, şlanqın ağzını yuxarı tutur, süni yağış yaradaraq, ətrafını- tünd rəngli (rəngin solğun olmasından həmin yeri hələ sulamadığını müəyyən edirdi) otlaqları hovuzdan gələn suyla nəfəs verirdi. Həmişəki kimi ayaqlarında başmağ, şap-şap deyilən şey yox idi. Yalın ayaqlarla şlanqı bir mövqedən digərinə keçirib (ayağına tikan batmasın deyə) ehtiyatlı şəkildə otuz metr radiusda manevr edirdi.

Bütün şəhər həyatından yığılan urban düşüncələri, cəfəng söhbətləri, qalmaqallı dedi-qodular beynindən boşaltmışdı. Həqiqətən də ağacları sulamaqla öz şəhər həyatından müvəqqəti də olsa qopub, öz şəxsi meditasiyasının ağuşuna daxil olurdu. Bank-da yığılıb qalan kredit borcları, onların gecikdirilmiş faizləri, kommunal qiymətlərin qalxması, azyaşlı oğlu Yasinin beynlə bağlı xəstəliyi elə bil bütün bu qarşılıqlı əlaqəli düşüncə-xəyallar suyun fışıltı sədaları, çiyirtkələrin ciyiltisi, ayaqları altında qalan sıx otların xırçıltısı fonunda bir anlıq qeyb olurdu. Çox sevinirdi.

Albalı qəsəbəsindəki bu bağı Rüstəm kişiyə xaricə köçmüş bir dostundan qalmışdı. Siyasi zəmində ölkəni tərk edən uşaqlıq yoldaşı həmin şəxs, bir başa varisi olmadığı üçün həmin qəsəbədəki 12 sotluq məhsuldar torpağı olan bağı (əslində bağdan çox bostana bənzəyirdi) ən yaxun dostuna təmənnasız şəkildə hədiyyə etmişdi. Rüstəm kişi qış payız aylarında iki aydan bir gəlməsinə baxmayaraq, bahar fəslinin gəlişi ili həftədə ən azı iki dəfə öz iri bağına baş çəkirdi. Həyətin daş hasarı yuxarıdan baxdıqda qeyri adi- formada “L” hərfi şəklində uzanırdı. “L”

hərfinin quyruq hissəsində iki otaqlı və mətbəxi olan balaca kottec yerləşirdi. Taxta tualet və açıq tavanlı hamam (sadəcə duş və altında çimənin zinət yerlərinin görsənməməsi üçün dörd nöqtədə yerə basdırılmış qalın taxta dirəklərin boyunca sarılmış mavi tent) isə həmin quyruğun lap arxasında yerləşirdi. Bir tərəfdən belə quruluş ona görə əlverişli idi ki, tələbatların ödənilməsi üçün nəzərdə tutulmuş tikili gözdən və yayın belə cırhacır aylarında burundan kifayət qədər uzaq yerdə idi. Kotecin arxasında həmin yerə baxan nə pəncərə nə də ki qapı vardı. Gecənin yarı, qarnın partlasaydı belə, məcbur olub evi bir dövrə etməli olacaqdın. Bununla belə həyətin quruluşunu tam "L" hərfinə bənzətmək olmaz. Həyətin bağ hissəsi daha geniş ərazini təşkil edirdi. Kottecdən beş metr öndə dördün səkkizə, yerdən hündürlüyü metr yarım olan çərhovuz yerləşirdi. Çərhovuzun suyunun üzərində qatı mamır adalarının üzməsi Rüstəm kişinin bağ mövsümünə hələ tam gücü ilə keçmədiyindən xəbər verirdi. Rüstəm kişi bir qayda olaraq İyul ayında ailəsi ilə birgə Albalı qəsəbəsinə gəlir və artıq iyunun son günlərindən etibarən özü tək gələrək qalacaqları yerdə abadlıq, səliqə səhman işləri aparardı. Yabani otları və tikanları belləyir, ağacların diblərini bellə düzəldir, hovuzu təmizləyir, kotecdəki otaqlarda bir il ərzindən sahiblik etmiş potensial həşəratları və ziyanvericiləri aradan qaldırırdı. (Həyat yoldaşının yanında hətta "Siçan" sözünü demək olmurdu,...siçandan elə qorxurdu ki, gəl görəsən).

Növbə divarın dibinə yaxın yerdə iki metr göyə uzanan vişnə ağacının idi. Yamyaşıl yarpaqları ideal simmetrik formada olub, bir-birindən lap qar dənəsi kimi seçilmirdi. Altı ilin ağacı yaxın aylarda artıq nübər meyvələri ilə Rüstəm kişinin ailəsini sevindirəcəkdi. Hələ o qədər də möhkəm olmayan şabalıdı gövdəsində üzü yuxarı dırmaşan qarışqalar

gözə sataşırdı. Suyun təzyiqini artırmaqla həmin ziyanvericiləri də məcburi şəkildə vişnə ağacından "düşürdürdü". Rüstəm kişiyə elə gəldi ki, bir qədər sağdan qara bir kölgə peyda olub, həmin dəqiqə də yoxa çıxdı. Çiynindən həmin istiqamətə nəzər saldıqda kölgənin hasarın üstündən göründüyünü düşündü. Əmin olmaq üçün, baş barmağını şlanqa bir az da bərk basaraq suyun hərəkət surətini daha da artıraraq hasarın o biri tərəfini su atəşinə tutdu. Həmin dəqiqə diksinmə və qaçış səsləri eşitdi. Bir neçə saniyədən sonra hasardan bir uşaq başı görükdü. Yalnız gözlərini və alnına tökülmüş nazik saçlarını görmək olurdu., üzünü turşutmağından bilinirdi ki, hasarın üstündə böyük çətinliklə qalır, çox gücənirdi. Nəhayət Rüstəm kişinin ona diqqətlə baxdığını görüb tez əllərini buraxdı (yəqin bilmirdi ki, Rüstəm kişi onu görə bilər) və hasarın o biri tərəfində kiminsə tappıltı ilə yerə gəldiyi eşidildi.

Rüstəm kişi yaman təşvişə düşdü. Əslində o qədər də narahatlığa lüzum yox idi. Çox güman uşaqlar kənd yerlərində olduğu kimi, bir qayda olaraq, meyvə dalınca gəlmişdilər. Halbuki ürəyinə danmışdı ki,burada başqa bir məsələ var. Eləmə təmbəllik, şlanqı vişnə ağacının altına uzadıb, ayağına güc verdi və darvazadan bayıra çıxıb, üstünə qoymuş balaca gədənin arxasınca qaçdı. Yaxşı ki, hasardan güdən bu balaca şeytan iki metr yarımlıq hasardan atılan zaman ayağı burxulmuşdu. Əks halda çətin ki, Rüstəm kişi uşağın on metrliyinə çata biləydi. Dəmiryolu reyslərinə kimi qaçaraq nəyahət yenidən uşaq büdrəyib ikinci dəfə eyni ayağını zədələdikdən sonra həmin uşağı yaxalamağa müvəffəq oldu. Sorğu sualı başlamazdan əvvəl hər ikisi yerə oturub, dərindən tənəffüs aldılar. 13-14 yaşlarında olan bu potaş uşaq heç də qorxudan qaçan birinə bənzəmirdi.

Üzündə heç bir həyəcan notu nəzərə çarpmırdı. Sadəcə tərəddüd vardı o müdrik baxışlarda "Deyim,yoxsa deməyim".

-Ay bala, hələ meyvə mövsümü deyil axı...Mənim bağıma niyə girirsiz ?

- Dayı sözün düzü biz elə bildik ki, sən həmişə bu bağa girən adamsan.

Rüstəm kişi bir qədər çaşdı:

- Necə yəni, elə mən həmişə bu bağa girən adamam da, bu bağın sahibi mənəm.

- Mən sizi demirəm. Sizdən başqa bura demək olar ki, hər gün günorta vaxtlarında bir cavan adam girir.

Rüstəm kişi nə deyəcəyini bilmədi:

- Özünü elə qəribə aparır ki, sadəcə həyətin ortasında donub qalır, ancaq başını o yan-bu yana çevirir. Əvvəl elə bilirdik ki, bağın yiyəsi odur. Sonra xəlvətcə hasardan aşdığını gördük. Başa düşdük ki, bu heç də xeyirxah məqsədlə gəlmir.

"Xeyirxah məqsədlə" yəni ondörd yaşlı uşaq belə sözü işlədə bilərdi. Bəs kim idi həmin adam. Özü yoxlayanı bağda və bağın kottecində olan əşyaların hamısı yerli yerində idi. Dəmir yolunun o biri tərəfindən keçən narıncı moskviç müvəqqəti olaraq söhbəti dayandırdı. Ta maşın nəzərlərdən yoxa çıxanadək. Artıq hər ikisinin tənəffüsləri seyrəlmişdi.

Rüstəm kişinin yalnız bir şey ağlına gəlirdi. Əlbəttə ki, həmin əclaf idi. Yalandan özünü zabit kimi təqdim edib, saxta sənədə Rüstəm kişinin xəttatlıq məharətindən istifadə edib qol çəkdirmək üçün əlil oğlunu qaçıran həmin yaramaz. Görünür hələ də ondan əl çəkmək istəmir. Rüstəm kişinin ürək damarında sanki bir neçə millisaniyəlik qara qan tıxacı

yaranıb, həmən də qanın təzyiqi altında ürəyin növbəti döyüntüsü ilə trombu açdı. Çox dəhşətli ağrı idi. Uşağı qorxutmamaq üçün sadəcə ağrıdan üzünü turşudub, bir qədər başını aşağı əydi. Ağzı ilə havanı sanki nahar yeməyi imiş kimi udub, bayaqdan vermək istədiyi sualı verdi.

- Bəs siz, hansı "xeyirxah məqsədlə" mənim bağıma girirdiz.

Yeniyetmə gözlərinə tökülmüş tellərini yana verib gözlərini Rüstəm kişinin baxış təmaslarından uzaqlaşdırdı. Yanaqları bir qədər qızardı. Həyəcan keçirənə oxşamasa da, dodaqlarının bir-birinə möhkəm sıxmasından uşağın yenə də dərin tərəddüd içində olması məlum olurdu. Ağzını açmaq istəyərkən arxalarından gələn qalın səs onu qabaqladı.

- Mən özüm deyərəm Aqil.- Rüstəm kişi burulub arxasında səbzxətt yeniyetmənin durduğunu gördü. Əlində oynatdığı dəmir zənciri o dəqiqə cibinə yığışdırdı. Arxasında nə isə gizlədirmiş kimi əllərini belinin arxasında bitişdirərək gizlətdi.

Rüstəm kişi əvvəl təşvişə düşsə də sonradan əllərini jestikulasiya məqsədilə aşkara çıxaranda həyəcana heç bir lüzüm olmadığına əmin olub sakitləşdi. Bircə bilə bilmədi ki, yaşlandığına görə mi, yoxsa nədən, arxasında kiminsə durduğunu səsini çıxarmayanadək hiss etmədi.

- həmin başdan xarab, bağınıza soxulmazdan əvvəl hər gün sizin bağda yığışırdıq.

- Biz yəni kimlər?

- Bizim öz dəstəmiz var. "Gecə yığışanlar". On-on beş nəfər yeniyetməyik. Axşamüstü, bəzən də gecə yarı yuxudan oyanıb, sizin bağınızda ocaq ətrafında toplaşırıq. ( yalnız indi Rüstəm kişiyə aydın oldu ki, torpağı belləyəndə niyə hər dəfə torpağın alt qatlarından qara kömür qalıqları və tozu üzə çıxırdı). Heç bir pis məqsədimiz yoxdur. Əgər artıq

yoxlamısınızsa əmin olmalısınız ki, bağınızdan bir çöp olsun belə oğurlamamışıq. "Gecə yığışanların" əsas məqsədi, gecə həyatına nəzarət etmək, oğruları, bağlara fahişələrlə gələnləri üzə çıxarıb, təpik altına salmaq, zinakar qadınların və kişilərin həyat yoldaşlarını vaxtında xəbərdar etməkdir. Bizi kəndin ağsaqalları və lotuları da dəstəkləyir. Yəqin siz gəlmə olduğunuz üçün bizim haqda heç eşitməmisiniz belə. Ona görə də sizə kimliyimizi demək o qədər də təhlükəli olmaz. Əslinə qalanda çox az adam "Gecə yığışanlar" dəstəsinin üzvlərini tanıyır. Bu baxımdan çox ehtiyatlıyıq. Bununla belə kənd ağsaqqalları dönə-dönə kənd polislərinə tapşırıblar ki, dəstə üzvlərindən heç birini tutub içəri basmasınlar. Biz "Gecə yığışanlar" bu kəndə, köhnə Bakılılara məxsus abu-havanı yenidən qaytarmışıq. Kənd camaatı bizim gördüyümüz işlərdən çox razıdır. Kənddə artıq nizam-intizam yaranıb. Gecələr içib özlərini yüngül aparan cütlükləri elə günə salırıq ki, bir də bu kəndə ayaq basmaq istəmirlər.

Rüstəm kişi "gəlmə" sözündən sonra özünü bir qədər alçaldılmış hesab etdi. Çoxdan Bakıya köçmüş rayonlu olsa da, köklü Bakılıların kompakt yaşadığı yerlərdən keçəndə özünü heç də Bakı sakini hesab etmirdi. Həmişə təmiz Bakılıları qeyrət və namus, yerinibilmə kimi baxışlarına görə çox sevərdi.

- Bəs siz...? sualını tamamlaya bilmədi ki, ədəbaz yeniyetmə onu önlədi.
- Bəs biz qaravul çəkiriksə, niyə sizin bağda yığışırıq?. Birincisi ona görə ki, sizin bağ kənd evlərinin və bağlarının yerləşdiyi sahənin ən mərkəzində yerləşir. İkincisi ona görə bağda yığışırıq ki, ....necə əsgərlikdə, karovul naryaddan qabaq təlim keçir, biz də ocaq başında dəstə üzvləri ilə postlarımızı təyin edib, kəndə pis

məqsədlərlə daxil olan “qonaqların” (sonradan tanıya bilmək üçün) görünüşləri haqqında bildiklərimizi paylaşırıq.

Rüstəm kişiyə həddi buluğa çatmamış bu uşaqların yaşından-başından böyük danışıqları bir qədər qorxulu gəlirdi. Sanki tam başqa bir planetə düşmüşdü. Hansısa qorxulu, fantastik filmlərin birində oşxar şey görmüşdü: orada qarğıdalı yetişdirməklə məşğul olan kənddə idarəçilik zorakı uşaqların əlində idi və burada yaşı 15-i ötmək ən böyük cinayət sayılaraq, edamla nəticələnirdi.

Bununla belə, bağına daxil olan adamın kimliyi bütün eşitdiklərinin (bunca qəribə və ağılçaşdıran olmasına rəğmən) prioritetini xeyli aşağı salırdı.

- Bəs həmin adamı o zaman, niyə “təpik altında almırdız”? Həmin o, mənim bağıma girən adamı deyirəm.

Sual hər iki yeniyetmənin dilini qaynar su kimi yandırdı. Heç biri qımıldamadı. Natiqlik istedadı ilə məğrurlanan potensial dəstə başçısı da bir söz demədi.

Nəhayət birinci gördüyü, potaş uşaq dilləndi.

- Biz onnan çox qorxuruq.

- Ağzıvı yum, Malış.-deyə öz aralarında tanındığı ləqəblə yeniyetmənin üstünə çığırdı... Mən özüm danışaram.

Ondörd yaşlı yeniyetmə güləşdə beli yerə vurulmuş məğlublar tək yazıq baxışlarla başını aşağı saldı.

- Malış düz deyir...Nə qədər qəribə olsa da biz həmin “onnan” qorxuruq (Rüstəm kişiyə qəribə gəldi ki, həmin “adam” sözünün əvəzinə “O” əvəzliyini işlətdi). Dəstə üzvlərinin çoxu hesab edir ki, bu iniş il

Zaqulybada boğulmuş Aslanın ruhudur. Aslan sağ qalsaydı artıq düz iyirmi iki yaşı olacaqdı.

-“Gecə yığışanları” o yaradıb- potaş yeniyetmə yenidən dözməyib, çox şeyi izah edən bu qısa cümləni dodaqları arasından qaçırdı.

- Sənə demədim ağzını yum...-hiddət dolu baxışlarla potaş yeniyetməni hədələdi.-...Onu artıq bir neçə dəfə gecə vaxtlarında da görüblər. Hay verirsən hay almır, çağırırsan eşitmir. Yalnız yerində donub səmaya və ətrafa baxır. Nadir hallarda da çox ləng addımlarla hərəkət edir. Qorxumuzdan onun beş metrliyinə belə yaxınlaşa bilmirik. Təkcə keçən həftə üzvlərimizdən biri postuna gedən zaman qonşu həyətin dalanından çıxanda həmin “onunla” qarşılaşıb. Gəlib gördük ki, uşağın ürəyi gedib. Özünə gəldikdən sonra da ancaq sarsağlayır. Yad dildə. O vaxtdan bəri dəstəmizdə cəmi beş-altı nəfər qalıb. Çıxanların yarısı günorta vaxtlarında yığışır. Ancaq bu mənasızdır, çünki şər həmişə gecənin gəlişi ilə başlayır. Səhər vaxtlarında oğru-zinakar nə gəzir?! Mən özümə söz vermişdim ki, həmin “onu” tutub it balası kimi çırpacam və bu tumana-batıranlara sübut edəcəm ki, bu yaramaz heç də ruh, qulyabani deyil, adi bir insandı, bir az dəlisov insan. Ancaq özüm onunla qarşılaşdıqda, ürəyi getmiş uşağın onunla üzbəüz çıxan zaman hansı hisslər keçirdiyini az da olsa başa düşdüm.

Rüstəm kişinin beyni yaman dumanlı idi. Həmin saxta zabitə mistik polterqeyst simasını vermək, nə dərəcədə şüurlu idi bilə bilmədi. Mobil telefonuna gələn zəng onu bu qəliz düşüncələrdən ani olaraq azad edərək beynin normal fəaliyyətini bərpa etdi. Mobil telefonun displeyində “Call 1” yazıldığından kiminsə anonim nömrədən zəng etdiyini bildi. “Y” hərfi yeyilmiş YES düyməsini baş barmağı ilə bərkdən sıxıb zəngə “ALO” deyə

cavab verdi. Uşaqlardan bir qədər aralanıb üzünü bağ istiqamətinə çevirmişdi.

- Salam- deyə kobud orta yaşlı kişi səsi eşidildi. Heç də "sülh olsun sənə" deyənlər kateqoriyasına aid deyildi. O daha çox "sənə bəd xəbərim var" tipli niyabət insanlar sinfinə mənsub idi.

- Salam

- Sizinlə danışan, Xətai rayon poliş şöbəsinin mayoru Rüfət Məmmədovdur.

Belindən soyuq üşütmə keçdi. Axı yalançı imza hədə-qorxusu ilə bağlı polisə vaxtında xəbər verməmişdi. Bəlkə ondan qabaq kimsə xəbər verib. Faktı polisdən gizləyən şəxs qanunla da ən pis cəzasını alır.

- Eşidirəm – deyə mümkün qədər həyəcanını boğmağa cəhd etdi.

- Bilirsiz biz bir gədəni tutmuşuq. Nə qədər sorğu-suala tuturuq dillənmir ki, dillənmir. Tərs it oğlu.

- Başa düşmədim, onun mənə nə aidiyyatı var?

- Bir gözlə də, rəhmətdiyin nəvəsi. Sözümü kəsmə - az qala yaşlı Rüstəm kişinin üstünə çığırdı. – Adını da demir. Mobil telefonuna baxdıq, orada əlaqələrdə ancaq sizin nömrə və ad vardı. Yazıb "Rüstəm-kaset-qazet"

Bəlkə də təkcə "Rüstəm-qəzet" desəydi, polis şöbəsinə gətirilmiş həmin insanın kim olduğunu ömrü boyu tapa bilməzdi. Ancaq telefonuna nömrəsini "kaset"adıyla yazan adam təkcə bir nəfər ola bilərdi.

- Mənə deyin görüm. Həmin adam cavandır? Təqribən neçə yaşlarında olar?

- Hə cavandır. İyirmi iyirmi beş yaşları arasında. O Sizin nəyinizdir.

- Onu nəyin üstündə saxlamısız rəis?

- İctimai asayışı pozduğuna görə. Parkın ortasında bir həmyaşıdıyla dalaşırdı. Ağız-burnunu pomidor eləyib uşağın.

- Bir dəqiqə gözlə sənə özüm zəng vururam.-deyə rəisin razılığını gözləmədən NO düyməsini basdı. Bəxtindən NO düyməsi normal işləyirdi və onu heç də var gücü ilə basıb sıxmaq lazım gəlmirdi. Əks halda belə bir vəziyyətdə sağollaşdıqdan sonra xəttdən getməməklə özünü gülünc şəklə salardı.

Rüstəm kişi lazımı nömrəni yığa-yığa uşaqların nə işlə məşğul olduğunu görmək üçün arxaya nəzər salsa da, uşaqların necə casuscasına peyda olmuşdularsa, eləcədə yoxa çıxmışdılar. Yaman qəribə dəstə idi. Artıq burada gözləməyin yersiz olduğunu görüb, öz bağına tərəf addımladı.

- Alo, Taley sənsən. Rüstəmdir danışan.

- Alo, Rüstəm...Həmişə sənin səsini eşidək. Haralardasan, lap şəkərbura olmusan, heç bayramlarda da səninlə görüşə bilmirəm.

- Nə var nə yox taleh. İşlərin necədi.

- Allaha şükür, sən necəsən, ailən necədi. Nə yaxşı zəng vurdun. Köhnə dostlardan xəbər almaq bilirsən nə xoşdur. –deyə səmimi şəkildə xəttin o biri tərəfində duran cavabladı

- Taley, bağışla..amma sənə vacib işim düşüb. Bildim ki, sənin üçün bu əlçatan məsələdi ona görə də dedim səndən bir kömək istəyim.

- Buyur.Buyur. Əlimdən gələn hər şey sənə qurbandır – Talehin taleyi sözün əsl mənasında Rüstəm kişinin köməkliyi sayəsində dirçəlmişdi. Uşaqlıqda birlikdə ova gedən zaman çöllük-biyaban bir yerdə şikarı vurmaq üçün sıldırım qayaya çıxan Taleh ayağı sürüşərək on metr məsafədən yerə aşmış və dizini açıq şəkildə

sındırmışdı. Qanı durmadan axmağa başlamış və yalnız Rüstəm kişinin ilk yardımı və onu belində düz iki kilometr yaşayış məntəqəsinə kimi daşıması sayəsində sağ qalmışdı. Taleh bunu heç zaman unutmur və Rüstəm kişini qardaşından da çox istəyirdi. Rüstəm kişi isə çox məğrur tip olduğundan heç zaman bu yaxşılığından sui-istifadə etməzdi. Taleh könüllü şəkildə dəfələrlə Rüstəm kişiyə xeyr versə də, Rüstəm kişi bir dəfə olsun belə ona ağız açmamışdı. İndi gərək Rüstəm kişinin diləyini təmin etmək üçün əlindən gələni edəydi. Bir halda ki, yalnız iyirmi-otuz ildən sonra Rüstəm kişi ona ricada tapılır, deməк bu Rüstəm kişinin ən son əlacıdır.

- Xətai Polis İdarəsində mənim yaxın dostumu saxlayıblar. Xırda dələduzluğa görə. Hələ sadəcə olaraq sorğu-sual edirlər. Bilməyib bir qələt eləyib, bir sözlə uşaqlıq edib, parkda həmyaşıdı ilə bir az dalaşıb. Sənə qurban olum, bir tövr danış, onu buraxsınlar. Çox yaxşı insandı.
- İşi aparan kimdir?
- Mayor idi...dedi Rüfət Məmmədov
- Sən lap anadan bəxtəvər doğulmusan ki, Rüfətlə biz hər gün "İğdırda" yeyib-içirik.
- Problem yoxdur, bu saat ona zəng edirəm. Bir gün az pul yesələr bir şey olmaz. – bir qədər fikirləşib Rüstəm kişidən soruşdu- Bəs sənin tanışının adı nədir?
- O elə tərs adamdır ki, heç adını da polislərə deməyib. Onun adı Muraddır.

Taleh – 52 yaşlı polis polkovniki – sağollaşmaqla, mobil telefonunda lazımı nömrəni tapıb-yığmağı bir oldu. Nəhayət ki, qismən də olsa Rüstəm kişinin xəcalətindən çıxacaqdı.

Taleh beş dəqiqə keçən kimi Rüstəm kişiyə zəng vurub, hər şeyin müsbət həll olunduğunu müjdələyən xəbəri çatdırdı. Rüstəm kişi də öz yerində oğlunun həyatını borclu olduğu "müştəri"-ni çətin vəziyyətdən qurtardığına görə çox sevindi. Uşağın arxasınca qaçan zaman açıq qoyduğu bağın hündür darvazasından vərdiş etdiyi kimi "Bismillah" sözləri ilə daxil olub, ağacların ləklərində yaranmış nəhəng gölməçənin daha da böyüməməsi üçün tez-bazar söndürməyi unutduğu su nasosunu keçirtdi.

*** *** ***

**Fatal zəngdən bir neçə dəqiqə əvvəl**

Murad yəni belə səhv buraxa bilərdi. Sorğu-suallı üzərinə söyüş yağdırsalar belə hər vəchlə rədd edirdi. Əsəblər o qədər tarıma çəkilmişdi ki, içəridə olan qalın bığlı, kəndi arıq polis nəfəri qarnına möhkəm bir yumruq zərbəsi endirdi. Zərbəyə hazır olmadığı ucbatından, zərbə bilavasitə tənəffüs sistemini bir-anlıq alt-üst etdi. Gözləri bərəldi, üzünə qırmız-qırmızı ləkələr çıxdı, elə bərkdən öskürməyə başladı ki, az qalmışdı səsdən bütün bina titrəsin. Zorakılıq da bu insanı sındırmırdı. İsrarlı şəkildə sual-cavabdan hər cür yolla imtina edirdi. İş o yerə çatdı ki, Murad ətrafındakı polisləri tam boykot edərək, ümumiyyətlə "susmaq orucuna" başladı.

Həmin zərbəni endirən polis məcbur olub, Muradın ciblərini yoxladı. Şalvarının sol cibindən o qədər də bahalı modeli olmayan əl telefonu çıxdı.

- Müslüm, nə deyirsən telefonundakı əlaqə nömrələrini axtaraq

- Bax gör neylirsən

Müslüm telefonun menyusunda qurdalanan həmkarının üz cizgilərinin total şəkildə dəyişməsindən, başa düşdü ki, " tövlədə saman yox imiş". Həmən soruşdu:

- Nə olub, nəisə tapdın
- Əksinə...Çox qəribədir...Bu yaramazın telefonu çox köhnədir, korpusuna baxan kimi bilməy olur. İş ondadır ki, telefonunun və simkartın yaddaşında ancaq bir nömrə var.
- Gəl biz zəng vurmayaq, Rüfət müəllim zəng etsin.- Murad narazı şəkildə üzünü turşutdu. Hərçənd kim idi onun rəyi ilə maraqlanan belə yox idi, qımıldanmadı belə.

*** *** ***

- "... İctimai asayışı pozduğuna görə. Parkın ortasında bir həmyaşıdıyla dalaşırdı". Ağız-burnunu pomidor eləyib uşağın.— Dut-Dut-Dut- qarşı tərəfin xəttdən getdiyini eşidib, ağzında çıxan söyüşləri yağdırdı ünvanına. Hələ Muradın əyləşdiyi taxta oturacağa da möhkəm bir təpik endirdi. Murad yenə qımıldamadı. İzahsız baxışlarla bir anlıq mayor Məmmədova baxıb, yenidən başını aşağı saldı.
- Gör adamlar necə qudurub e, əvvəllər eşidəndəki polis serjantı ona müraciət edir bədənlərinə vicvicə düşərdi, özlərini elə yığardılar ki, gəl görəsən. İndi isə mən boyda mayora hansısa patsan odboy verir. Eybi yoxdu...əvəzini sənnən çıxaram yaramaz. Səni elə danışdırım ki, gəl görəsən.

- Müslüm, qaç bura iki dəsmal gətir, birini kranta yaş elə, o biri quru olsun. Bir də Cəfərin elektroşokunu gətir. Bunu ancaq qril kimi qızartmaqla danışdırmaq olar.

Müslüm yüz faiz əmin idi ki, mayor Məmmədov heç də zarafat eləmir. Ona görə bir az rəngi ağardı. Rüfət Məmmədovun cinayətkarların başına gətirdiyi etiraf naminə qeyri-qanuni işgəncələri haqqında çox eşitmişdi. İndi isə ömründə vəhşilik görməyən biri üçün, zorakılıq çox tükürpədici gəlirdi.

- Rəis deyirəm bəlkə lazım deyil

- Kəs səsivi sənə deyiləni elə, yoxsa əngivi dağıdaram.

Elektroşoku və dəsmallar gəldikdən sonra, kinayə ilə Murada baxsa da, Muradın simasında heç bir dəyişikliyin olmadığını görüb hiddətləndi. Nəm dəsmalı boynunun ətrafına sarıdı. Ovucluq elektroşoku ən güclü voltaja keçirib Murada tərəf hədələyici hərəkətlərlə yaxınlaşdı. Murad yenə də sakit idi.

Mayor başa düşdü ki, bu  adi tip insan deyil. Öldürsən də danışmaz. Ona görə də özünü boş yerə zibilə salmamaq üçün Müslümə tərəf baxıb

- Əvvəl bütün üstbaşını yoxla-deyə əmr etdi.

Polis nəfərlərin nəzərlərindən yayınsa da, Murad sanki sinirlərindən cərəyan keçərmiş kimi, ürəyinin döyüntüsü artdı. Ən qorxduğu təhlükə ilə üz-üzə idi. Müslüm onu yoxlamaq üçün yaxınlaşan anda, Rüfət Məmmədovun mobil telefonuna böyük taleyi müəyyən edən böyük zəng gəldi. Müslüm Muradın üst köynəyinin cibinə əlini atırdı ki, mayor Məmmədov ani olaraq.

- Saxla Müslüm, ...onun əllərini aç, boynunan da dəsmalı çıxar deyə qarşı tərəf eşitməsin deyə sağ əli ilə telefonun mikrofonunu sıxaraq

Müslümə çığırdı. Müvafiq əmrin yerinə yetdiyini görüb, yenidən telefon söhbətinə qayıdıb, dost söhbəti abu-havasında dinləmə otağını tərk etdi.

Murad köynəyinin cibində olan, bütün planları alt-üst edə biləcək həmin şeyin aşkar olunmadığına çox şadiman oldu. Özünə and verdi ki, bir daha belə axmaqlıq etməyəcək. Onu da başa düşdü ki, Rüstəm kişi nəhayət ki, onunla əvəz-əvəz oldu. "Tuz vaxtından əvvəl əldən getdi" –düşüncəsi ilə bükülmüş halda Polis şöbəsinin binasını tərk etdi.

## I HISSƏNİN SONU